Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Orqanı

# QANUNÇULUQ

## HÜQUQ JURNALI



№ 03 mart 2017

*Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur!*

*Heydər ƏLİYEV,*
*Azərbaycan xalqının ümummilli lideri*



*Ölkəmizin hərtərəfli inkişafı üçün, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi üçün məhkəmə-hüquq sisteminin təkmilləşməsi başlıca şərtdir*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*



QANUNÇULUQ

HÜQUQ JURNALI

№ 03 MART 2017

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Faiq Qurbanov**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**




Qeydiyyat tarixi: 18.04.2003,
Reyestr №-si: 439. İndeks 1032

“Qanunçuluq” jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş,
“Ədliyyə Nəşriyyat Evi” MMC-də çap olunmuşdur.
Ədliyyə Nəşriyyat Evi MMC-nin ünvanı: Xaqani küç., 14,
tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri:
“Ədliyyə Nəşriyyat Evi” MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701;

Azərbaycan Beynəlxalq Bankın Səbail filialı, kod 805551,
VÖEN 9900001881, M/h 0137010002031,
SWİFT/Bik İBAZAZ-2X.

# Bu sayımızda:


**RƏSMİ MƏLUMAT**

İran-Azərbaycan əlaqələri uğurla inkişaf edir ............................................5
Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya rəsmi səfəri.......................8
V Qlobal Bakı Forumu keçirilib ..............................................................11
8 mart - Beynəlxalq Qadınlar Günü münasibəti ilə
Azərbaycan qadınlarına təbrik ..............................................................13
Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik ..........................13
Novruz münasibətilə ümumxalq şənliyi ...................................................14
Ölkə Prezidentinin növbəti humanist addımı ............................................16




**MÜSAHİBƏ**

Cəza siyasətinin humanistləşdirilməsi insan hüquqlarının təmin olunmasına xidmət edir *(Azərbaycan Respublikasının ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun müsahibəsi)* ....................................18



**ƏDLİYYƏ NAZİRLİYİNDƏ**

Penitensiar xidmətin kadr korpusu komplektləşdirilir ...............................25
İmişli Rayon Məhkəməsinin yeni müasir inzibati binası
istifadəyə verilib ..................................................................................27
Ədliyyə naziri Beyləqan rayonunda vətəndaşları qəbul edib.......................28
8 mart - Qadınlar günü ədliyyə orqanlarında qeyd olunub..........................29
Ədliyyə Nazirliyində görüş ....................................................................30




**31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR**

31 mart - azərbaycanlıların soyqırımı qurbanlarının xatirəsi yad edilib........31
Pərvanə Əliyeva. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Mart soyqırımının araşdırılmasında Fövqəladə İstintaq Komissiyasının tarixi xidmətləri......................................32




**MƏLUMATLAR, ELANLAR**

Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı növbəti
açıq müsabiqə elan edilir ......................................................................36
Ədliyyə Akademiyasının məlumatları.......................................................36



**TƏDBİRLƏR, YIĞINCAQLAR**

Məhkəmə xidmətlərinin keyfiyyətini və səmərəliliyini artırmaq üçün
ictimai rəy öyrənilir...............................................................................39



**HÜQUQ NƏZƏRİYYƏSİ**

Низами Сафаров, Максим Куцевич. Преступления против человечности: новые перспективы международно-правовой регламентации в свете деятельности комиссии международного права ООН ......................................41
Təbriz Musayev. Azərbaycan Respublikası qanunvericiliyində məhkəmə qaydası pozuntusuna görə nəzərdə tutulmuş məsuliyyətin İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququ aspektindən tədqiqi .............................................52




## YENİ QANUNLAR, FƏRMANLAR...

“Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş ”Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........................................................60



# İran-Azərbaycan əlaqələri uğurla inkişaf edir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də İran İslam Respublikasında rəsmi səfərdə olub.**

Rəsmi qarşılanma mərasimindən sonra Prezident İlham Əliyevin və İran Prezidenti Həsən Ruhaninin görüşü keçirilib. Görüşdə ölkələrimiz arasında mədəni, iqtisadi, dini əlaqələrin və mehriban qonşuluğun əməkdaşlığımızın əsasını təşkil etdiyi vurğulanıb. Azərbaycan ilə İran arasında əlaqələrin ölkələrimizin maraqları əsasında inkişaf etdiyinin qeyd olunduğu görüşdə qarşılıqlı sərmayə qoyuluşunun əhəmiyyəti diqqətə çatdırılıb, bu istiqamətdə bir sıra addımların atıldığı bildirilib.

Söhbət zamanı iqtisadi əlaqələrimizin sürətlə inkişaf etdiyi, Xəzər dənizində, enerji, o cümlədən neft-qaz sahələrində əməkdaşlığın yaxşı potensialının olduğu vurğulanıb. Ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyi qeyd olunub, hərbi-texniki sahədə əməkdaşlıq üçün yaxşı perspektivlərin mövcudluğu diqqətə çatdırılıb. Dövlət başçıları Azərbaycan ilə İran arasında dostluq münasibətlərinin son illər daha yüksək səviyyəyə çatdığını vurğulayıblar.

Sonra Azərbaycan və İran prezidentlərinin iştirakı ilə sənədlərin imzalanması mərasimi keçirilib. Mərasimdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası və İran İslam Respublikasının İqtisadi Məsələlər və Maliyyə Nazirliyi yanında Maliyyə Monitorinqi İdarəsi arasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində əməkdaşlığa dair və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə İran İslam Respublikasının Dəmir Yolları Şirkəti arasında dəmir yolu əlaqəsinin birləşdirilməsinə dair Anlaşma memorandumları imzalanıb.

İmzalanma mərasimi başa çatdıqdan sonra dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər. Son üç il ərzində Azərbaycan-İran əlaqələrinin yüksək səviyyədə inkişaf etdiyini söyləyən Prezident Həsən Ruhani bu əlaqələrin siyasi, ikitərəfli, regional və beynəlxalq məsələləri əhatə etdiyini, həmçinin iqtisadi və mədəni sahədə genişləndiyini vurğulayıb. Son 10 ay ərzində ticarətin həcmi iki ölkə arasında əlaqələrin inkişafının göstəricisi olmaqla, hər iki



*Azərbaycan və İran prezidentlərinin görüşü*

dövlətin bu əlaqələrin vüsət tapması üçün səylərini nümayiş etdirir. Azərbaycan ilə İran tranzit məsələlərində, xüsusilə də Şimal-Cənub nəqliyyat dəhlizində mühüm rol oynayır və Astara-Astara dəmir yollarının birləşdirilməsi bu mühüm layihənin gerçəkləşməsində birinci vacib addımdır.

İran Prezidenti iki ölkənin səyi ilə Rəşt-Astara dəmir yolunun inşasına başlanılacağını, ölkələrimizin enerji sahəsində əməkdaşlığa hazır olduğunu, Azərbaycanın neft və neft məhsullarının cənub sularına çatdırılmasında maraqlı olduğunu bildirib, müştərək sərmayə qoyuluşunu, eləcə də Azərbaycanda avtomobil zavodunun və dərman preparatları istehsal edən müəssisənin inşası üçün önəmli addımlar atıldığını diqqətə çatdırıb. O, həmçinin Xəzər dənizinin hüquqi statusu və dənizdəki neft mənbələrinin istifadəsi, habelə üçtərəfli formatda əməkdaşlıq, regional məsələlərə toxunaraq bildirib ki, İran İslam Respublikası bu əqidədədir ki, ölkələrin ərazi bütövlüyünə hörmət edilməli, regiondakı münaqişələr danışıqlar və diplomatik yollarla tənzimlənməlidir. Ümidvarıq ki, Dağlıq Qarabağ münaqişəsi danışıqlar yolu ilə həllini tapacaq. Onu da vurğulayıb ki, Azərbaycan-İran münasibətləri dostluğa və qardaşlığa əsaslanan strateji münasibətlərdir.

Son üç il ərzində İran İslam Respublikasına üç dəfə səfər etdiyini, Prezident Ruhani ilə səkkiz dəfə görüşdüyünü söyləyən Azərbaycan Prezidenti İlham Əliyev bunu İran-Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin çox uğurla və sürətlə inkişafının təzahürü kimi dəyərləndirib: "Bizim əlaqələrimiz qədim tarix, mədəniyyət, ortaq din əsasında qurulub. Bu möhkəm təməl əsasında biz gözəl əməkdaşlıq qurmuşuq. Siyasi əlaqələrimiz yüksək səviyyədədir. Biz bütün beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi əsasında həll olunması istiqamətində səylərinə görə İran İslam Respublikasına minnətdarlığımızı bildiririk. Bu mövqe beynəlxalq prinsiplərə, qanuna və ədalətə əsaslanır. Hər bir ölkənin ərazi bütövlüyü toxunulmazdır".

Dövlətimizin başçısı iqtisadi sahədə əldə olunan müsbət nəticələrdən bəhs edərək ötən il ticarət dövriyyəsinin 70 faizdən çox artdığını, İran tərəfinin Azərbaycana sərmayə qoymasını, Azərbaycanın



İranın Ali Rəhbəri Seyid Əli Xamenei ilə görüş

Rəşt-Astara dəmir yolunun çəkilişi üçün böyük həcmdə öz maliyyə resurslarını səfərbər etdiyini, 2016-cı ildə ölkəmizin öz dəmir yolunu Azərbaycan-İran sərhədinə qədər çəkdiyini, Astaraçay üzərində dəmir yolu körpüsünün tikilib istifadəyə verildiyini bildirib. Birgə icra olunan Şimal-Cənub nəqliyyat dəhlizini tarixi hadisə adlandıran Prezident İlham Əliyev bu layihənin, eyni zamanda, regional əməkdaşlıq məsələlərinə mühüm töhfə verdiyini vurğulayıb, energetika sahəsində əldə olunan böyük uğurları qeyd edib. Dövlətimizin başçısı, həmçinin bu il Azərbaycanda "İslam Həmrəyliyi İli"nin elan olunduğunu, yaxın vaxtlarda Bakıda IV İslam Həmrəyliyi Oyunlarının keçiriləcəyini diqqətə çatdırıb.

İran-Azərbaycan əlaqələrinin inkişafına xüsusi əhəmiyyət verdiyini və bu əlaqələri çox yüksək qiymətləndirdiyini söyləyən Azərbaycan Prezidenti hazırkı səfərin əməkdaşlığın inkişafına çox böyük dəstək olacağını vurğulayıb.

Səfər zamanı Azərbaycan Prezidenti İlham Əliyevin və İranın Ali Rəhbəri Seyid Əli Xameneinin görüşü olub.

Görüşdə dövlətimizin başçısı Azərbaycan və İranın yaxın dost və qonşu ölkələr olduğunu, son illər Azərbaycan-İran əlaqələrinin çox yaxşı inkişaf etdiyini vurğulayaraq bildirib ki, siyasi, iqtisadi və digər sahələrdə münasibətlərimiz yüksək səviyyədədir. Ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində bir-birini fəal dəstəkləyir.

Mütəmadi qarşılıqlı səfərlərin münasibətlərimizi daha da möhkəmləndirdiyini deyən Prezident İlham Əliyev bu səfərlər çərçivəsində 20-dək sənədin imzalanmasının və qərarların qəbul edilməsinin əhəmiyyətini vurğulayıb, iki ölkə arasında ticarət dövriyyəsinin artdığını, Şimal-Cənub nəqliyyat dəhlizi layihəsinin həyata keçirilməsinin tarixi hadisə olduğunu bildirib.

İranın Ali Rəhbəri Seyid Əli Xamenei ölkəsinin Azərbaycan ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini bildirib. Qarşılıqlı ticarət dövriyyəsinin həcminin daha da artırılmasının vacibliyini qeyd edən Seyid Əli Xamenei Prezident İlham Əliyevə fəaliyyətində uğurlar diləyib və Azərbaycan xalqına firavanlıq arzularını çatdırıb.

Elə həmin gün dövlətimizin başçısı İlham Əliyevin İrana rəsmi səfəri başa çatıb.

# Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya rəsmi səfəri



*Azərbaycan və Fransa prezidentlərinin görüşü*

**Azərbaycanın Avropanın böyük və nüfuzlu dövlətlərindən biri olan Fransa ilə əməkdaşlıq əlaqələri qurmasından 25 il ötür. Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən olan Fransa ilə bütün strateji əhəmiyyətli sahələrdə əməkdaşlıq uğurla inkişaf etdirilir, ölkə başçılarının qarşılıqlı səfərləri bütün sahələrdə münasibətlərin inkişafına ciddi təkan verir.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin cari ilin martın 12-dən 15-dək Fransa Respublikasına rəsmi səfəri çox məhsuldar və yaddaqalan olub.

Səfər zamanı Parisdə, Yelisey Sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Fransa Prezidenti Fransua Ollandın görüşü olub.

Yelisey Sarayının qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Fransa Prezidenti dövlətimizin başçısını qarşılayıb, birgə foto çəkdirilib.

Görüşdə ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olmasından məmnunluq ifadə edilib. Qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin inkişafı baxımından böyük əhəmiyyətə malik



Azərbaycan-Fransa sənədlərinin imzalanması mərasimi

olduğu vurğulanıb. Ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən nəqliyyat, kənd təsərrüfatı, infrastruktur, kosmik sənaye, turizm, bərpaolunan enerji, ətraf mühit sahələrində səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirilib.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

Sonra Prezident İlham Əliyevin və Prezident Fransua Ollandın iştirakı ilə Azərbaycan-Fransa sənədlərinin imzalanması mərasimi olub. Mərasimdə "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Fransa Respublikasının Ətraf Mühit, Enerji, Dəniz və İqlim üzrə Beynəlxalq Əlaqələr Nazirliyi arasında Anlaşma Memorandumu", "Fransanın İnkişaf Agentliyi ilə Azərbaycan Respublikası arasında Kredit Müqaviləsi", "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Fransa Respublikasının Baş naziri yanında Dövlət İslahatları və Asanlaşdırma üzrə Dövlət Katibliyi arasında dövlət xidmətlərinin göstərilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyaları Nazirliyi ilə Fransa Respublikasının İqtisadiyyat, Sənaye və Rəqəmsal Nazirliyi arasında innovasiya, informasiya və kommunikasiya texnologiyaları sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumu", "Azərbaycan Respublikası Dövlət Şəhərsal-



Mətbuata birgə bəyanatla çıxışlar





Fransa Senatının sədri Jerar Larşe ilə görüş

ma və Arxitektura Komitəsi ilə Fransa Respublikasının Mənzil və Davamlı Yaşayış Nazirliyi arasında Niyyət Protokolu" imzalanıb.

İmzalanma mərasimindən sonra dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər.

Səfər zamanı Prezident İlham Əliyevin Fransa Respublikası Senatının sədri Jerar Larşe və Milli Assambleyasının sədri Klod Bartolon ilə də görüşləri keçirilib.

Görüşlərdə Azərbaycan-Fransa əlaqələrinin strateji istiqamətdə inkişaf etdiyi, ölkələrimiz arasında ikitərəfli münasibətlərin, eləcə də parlamentlərarası əlaqələrin çox yüksək səviyyədə olduğu vurğulanıb, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində görülən işlər və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı, həmçinin digər bir sıra mühüm görüşlər keçirib. "Vivaction" şirkətinin prezidenti Rişar Mari, "SUEZ" qrupun baş direktorunun müavini, həmçinin MEDEF-in vitse-prezidenti xanım Marie-Ange Debon, DCNS şirkətinin prezidenti Erve Qiyu, "CIFAL" qrupun prezidenti Jil Remi, "Credit Agricole SA" şirkətinin baş direktoru Ksavye Musca, "Airbus" şirkətinin müdafiə və kosmik sistemlər üzrə icraçı vitse-prezidenti Nikolya Şamosi, "Thales International" şirkətinin baş vitse-prezidenti Rafael Eskinazi, "Total" şirkətinin prezidenti Patrik Puyane ilə keçirilmiş görüşlərdə ikitərəfli əməkdaşlığın perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Prezident İlham Əliyevin Fransa Şirkətlər Hərəkatının (MEDEF) biznes şurasının üzvləri ilə görüşündə dəmir yolu, qlobal nəqliyyat layihələri, metro tikintisi, rabitə texnologiyaları, kosmik sənaye, hava nəqliyyatı, energetika, neft-qaz sənayesi, maliyyə-bank sistemi, şəhər infrastrukturu layihələri, kənd təsərrüfatı, irriqasiya sistemi, turizm, mehmanxana sənayesi, bərpaolunan enerji və digər sahələrdə Azərbaycan ilə çox uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib və bu sahələrdə əlaqələrin inkişafına dair interaktiv fikir mübadiləsi aparılıb. Sonda "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə "Thales Air Systems SA" şirkəti arasında Anlaşma Memorandumu imzalanıb.





Fransa Milli Assambleyasının sədri Klod Bartolon ilə görüş

# V Qlobal Bakı Forumu keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev Forumun açılışında iştirak edib




**Son illər respublikamızın uğurla ev sahibliyi etdiyi mühüm beynəlxalq tədbirlər, o cümlədən humanitar forumlar, sivilizasiyalararası dialoq forumu, müxtəlif idman yarışları və digər qlobal əhəmiyyətli tədbirlər Bakını beynəlxalq əməkdaşlığın əsas mərkəzlərindən birinə çevirib. Belə tədbirlərdən biri Qlobal Bakı Forumudur. Qlobal Bakı Forumu Azərbaycanı tanıtmaq, ölkəmizlə bağlı həqiqətləri dünyaya çatdırmaq üçün çox mühüm və əlverişli platformadır.**

Martın 16-17-də "Beynəlxalq münasibətlərin gələcəyi: güc və maraqlar" mövzusuna həsr olunan Foruma 56 ölkədən 300 nəfərədək nümayəndə, o cümlədən müasir dünya siyasətinin yönləndirilməsində, bir çox regional proseslərin qiymətləndirilməsində mühüm rolu olan çox nüfuzlu dövlət xadimləri, siyasətçilər, elm adamları, siyasi ekspertlər qatılıblar.

Forumun nüfuzlu qonaqları arasında Latviya Prezidenti Raymonds Veyonis, Makedoniya Prezidenti Georgi İvanov, Albaniya Prezidenti Buyar Nişani, Monteneqro Prezidenti Filip Vuyanoviç, Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili, Səudiyyə Ərəbistanı Şahzadəsi, Kral Faysal Araşdırma və İslami Çalışmalar Mərkəzinin sədri Turki əl-Faysal da iştirak ediblər.

Forumun açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər.

Misirin İsgəndəriyyə Kitabxanasının direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin Prezident İlham Əliyevə bu Foruma ev sahibliyi etdiyinə görə təşəkkürünü bildirib və çıxış üçün sözü dövlətimizin başçısına verib.

Prezident İlham Əliyev beşinci dəfədir keçirilən Forumun artıq beynəlxalq təsisata çevrildiyini, son illər Azərbaycanın bir çox mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini bildirib. Azərbaycanın yerləşdiyi regionda sabitləşdirici rol oynadığını, təəssüf ki, bu vəziyyətin dünyanın bir çox bölgələrində müşahidə olunmadığını deyən dövlət başçısı bir çox regionlardakı gərginliklərə, münaqişələrə, miqrant böhranına diqqət çəkib, cəmiyyətlər daxilində baş verən qarşıdurmaların təhlükəli hal aldığını vurğulayıb.

Çıxışında diqqətini Ermənistan-Azərbaycan

Dağlıq Qarabağ münaqişəsinə yönəldən Prezident İlham Əliyev 20 ildən artıqdır Dağlıq Qarabağ və ətraf yeddi rayonun erməni işğalı altında qaldığını, bütün infrastrukturun dağıdıldığını, tarixi və dini abidlərimizin məhv edildiyini, bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü vurğulayıb. Beynəlxalq təşkilatların qərar və qətnamələrinə baxmayaraq münaqişənin hələ də həll olunmadığını, Ermənistanın həmin qərarlara məhəl qoymadığını söyləyən dövlət başçısı ölkəmizin bir çox hallarda ikili standartdan əziyyət çəkdiyini, bu münaqişənin regionda sülhə və təhlükəsizliyə ciddi təhdid olduğunu, status-kvonun dəyişilməsinin vacibliyini qeyd edib.

Bütün çətinliklərə baxmayaraq Azərbaycanın inkişaf etdiyini, iqtisadi göstəricilərin artdığını, geniş regional inkişaf proqramlarının icra olunduğunu, işsizliyin və yoxsulluğun dəfələrlə aşağı salındığını deyən Prezident İlham Əliyev Azərbaycanın regionda və dünyada güclü mövqeyinin olduğunu bildirib, həm qonşularla, həm də Avropa İttifaqına üzv olan dövlətlərlə sıx əlaqələrin qurulduğunu vurğulayıb.

Ötən ay Avropa İttifaqı ilə strateji tərəfdaşlığı nəzərdə tutan yeni saziş üzərində başlanan danışıqların əhəmiyyətindən bəhs edən ölkə rəhbəri bildirib ki, bir müddət öncə ABŞ və Rusiya baş qərargah rəislərinin Bakıda görüşməsi bir daha onu göstərir ki, ölkəmizə hörmətlə yanaşılır və Azərbaycanın müstəqil siyasət yürütməsi artıq reallıqdır. Ölkəmizin dünyanı təhdid edən təhlükələrə qarşı mübarizə apardığını, sülhməramlı təşəbbüslərə töhfə verdiyini deyən Prezident İlham Əliyev Azərbaycanın icrasında mühüm rol oynadığı qlobal layihələrdən danışıb, Bakı-Tbilisi-Qars dəmir yolu, Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin və ümumi dəyəri 40 milyard dollar olan "Cənub Qaz Dəhlizi" layihəsinin əhəmiyyətini vurğulayıb.

Dövlət başçısı, həmçinin ölkəmizin mədəniyyətlərarası dialoqa böyük əhəmiyyət verdiyini, malik olduğumuz tolerantlıq və multikulturalizm ənənələrinin Azərbaycanı bu prosesin mərkəzinə çevirdiyini diqqətə çatdırıb.

Sonra Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq prezidenti Vayra Vike-Freyberqa çıxış edib, İtaliyanın Azərbaycandakı səfiri Ciampaolo Kutillo İtaliya Respublikasının Prezidenti Sergio Mattarellanın, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı müvəqqəti işlər vəkili Stefan Makkornak Birləşmiş Krallığın Baş naziri Tereza Meyin müraciətlərini Forum iştirakçılarının diqqətinə çatdırıblar.

İki gün davam edən Beşinci Qlobal Bakı Forumu iclaslar, panel sessiya və müzakirələrlə martın 17-də başa çatıb.



# 8 mart - Beynəlxalq Qadınlar Günü münasibəti ilə Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibəti ilə səmimi qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan qadınının tarixən cəmiyyətdə tutduğu mövqeyin, həyatımızın bütün sahələrində mühüm nailiyyətlərə yol açan və inkişafımızı təmin edən başlıca amil kimi müstəsna əhəmiyyəti vardır. Ötən əsrin ilk onilliklərində, dünyanın bir çox qabaqcıl ölkələrinin qadınlarından xeyli əvvəl seçib-seçilmək hüququ qazanan qadınlarımız zəngin ictimai-siyasi fəaliyyətləri sayəsində çoxsaylı müvəffəqiyyətlər əldə etmişlər. Bu ilin respublikamızda "İslam Həmrəyliyi İli" elan edilməsi ilə əlaqədar xüsusi vurğulamaq lazımdır ki, mədəniyyətin, incəsənətin, elmin və təhsilin müxtəlif istiqamətləri üzrə müsəlman Şərqində qadınlar arasında ilk addımları məhz onlar atmışlar. Gənc xanımlarımızın nəsillərin mənəvi varisliyi prinsipini bu gün də qorumaqla özlərinin maarifpərvər sələflərinin ləyaqətli davamçılarına çevrilmələri sevindirici haldır.

Çoxəsrlik mədəni irsimizin təşəkkülündə misilsiz xidmətlərə malik Azərbaycan qadını dünyaya bəşər mədəniyyəti xəzinəsinin incilərini yaradan görkəmli ədiblər, tarixi şəxsiyyətlər, tanınmış elm və sənət adamları bəxş etmişdir. Milli varlığımızın ifadəsi olaraq əxlaqi-mənəvi sərvətlərimizin və mədəni-tarixi dəyərlərimizin, keçmişimizin ən mürəkkəb dövrlərində belə, qorunub yaşadılması bilavasitə onun adıyla bağlıdır.

Ana məfhumu minillərdən bəri xalqımızın təfəkküründə doğma yurdu, vətən torpağını və dilimizi təcəssüm etdirmişdir. Analarımız azərbaycançılıq məfkurəsinə sadiq layiqli övladların tərbiyəsi üçün üzərlərinə düşən vəzifənin öhdəsindən bu gün də şərəflə gəlirlər. İndi ürəyi ölkəmizə hədsiz sevgiylə dolu, vətəni ana qədər müqəddəs bilərək torpaqlarımızın hər qarışını qorumağa hazır olan, müstəqilliyimizlə yaşıd bir nəsil yetişmişdir. Bu, Azərbaycan qadınının müasir dövlətçiliyimizə ən böyük töhfəsidir.

İnanıram ki, yüksək mənəviyyatınız və qurub-yaratmaq əzminizlə siz cəmiyyətimizin həyatına bundan sonra da yeni çalarlar gətirərək daim yeniləşən ölkəmizin müstəqillik salnaməsinə parlaq səhifələr yazacaqsınız.

Dərin hörmət və ehtiramla,

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 6 mart 2017-ci il*

# Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Əziz həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə can sağlığı və xoş əhval-ruhiyyə arzulayıram.

Novruz bayramı ulu babalarımızın zəngin mənəvi aləmini dolğun təcəssüm etdirir. Ən qədim təsəvvürləri qoruyub saxlamış bu bayram təbiətlə insanın sarsılmaz vəhdətinə dərin ehtiramın ifadəsidir. Odlar diyarına onun hər gəlişi min illərin ənənəsinə uyğun, rəngarəng mərasimlər və el şənlikləri ilə müşayiət olunmuşdur. Milli özünüdərkin təşəkkülündə müstəsna mövqeyə malik Novruz ənənələri çoxəsrlik tarixi keçmişinə daim ehtiramla yanaşan xalqımızın dünya mədəniyyətinə misilsiz töhfələrindəndir. Həmin ənənələrin müqəddəs ərməğan kimi həmişə uca tutulması və layiqincə yaşadılaraq gələcək nəsillərə çatdırılması hər bir azərbaycanlının vətəndaşlıq borcudur.

Bahar bayramı dövlət müstəqilliyimizin nailiyyəti olaraq rəsmi statuslu əsl ümumxalq bayramı səviyyəsində ölkəmizin bütün guşələrində qeyd edilir. Qloballaşma dalğasının geniş vüsət aldığı və dünyanı sürətli dəyişikliklərə məruz qoyduğu bir vaxtda o, tükənməz mənəvi gücü sayəsində dini-

mənəvi dəyərlərimizə, tarixi-mədəni irsimizə bağlılığımızın təntənəsinə çevrilmişdir. Yaz bayramı yeniləşdirici ruhu və ılıq nəfəsiylə insanlar arasında səmimi münasibətlərə yol açır, dostluq, mərhəmət və bərabərlik duyğularını gücləndirir, cəmiyyətin inkişafının ahəngdarlığını təmin edir. Onda gələcəyə inam aşılamaq və könüllərdə ülvi duyğular oyandırıb xeyirxahlığa sövq etmək qüdrəti vardır. Ən yüksək dəyərləri özündə topladığı üçün də belə bir mənəviyyat xəzinəsi bəşəriyyətin mədəni irs nümunələri siyahısında yer almışdır.

Mən torpaqlarımızın müdafiəsində mətinliklə dayanan Azərbaycan əsgərinə bayram təbriklərimi yetirirəm. Vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda şəhid olmuş qəhrəman övladların unudulmaz xatirəsini bir daha ehtiramla yad edərək onlara Allahdan rəhmət, yaxınlarına səbir diləyirəm.

Dünya azərbaycanlılarının həmrəyliyinin rəmzi Novruz bayramını xaricdə yaşayan soydaşlarımızın milli məfkurə işığında bizimlə birgə qeyd etmələri onlarda yurdumuza bağlılıq hisslərini gücləndirir.

Arzu edirəm ki, öz gəlişiylə bu gözəl bayram hər evə, hər ocağa bol ruzi-bərəkət gətirsin və hamınıza yeni sevinclər bəxş eləsin.

Xalqımızın əziz Novruz bayramı mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 17 mart 2017-ci il*

# Novruz münasibətilə ümumxalq şənliyi

***Martın 18-də Bakıda Azərbaycan xalqının milli bayramı - Novruz münasibətilə ümumxalq şənliyi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Novruz şənliyində iştirak ediblər.***



Bakıda keçirilən V Qlobal Bakı Forumunun yüksək səviyyəli iştirakçıları da Novruz şənliyinə qatılıblar.

Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəliblər. Milli geyimli uşaqların meydanda rəqsi, incəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnılarının sədaları bayram şənliyinin iştirakçıları tərəfindən xoş ovqatla qarşılanıb.

Bahar qız Azərbaycan Prezidentinə Novruz xonçası təqdim edib, dövlətimizin başçısına və xanımına bayram münasibətilə təbriklərini çatdırıb.

Dünyanın yaranışını tarixən ilk yaz günü ilə bağlayan xalqımız əsrlər boyu Novruz bayramını əziz tutub. Azərbaycanda hər il mart ayında qeyd edilən Novruz baharın gəlişi, təbiətin canlanması, torpağın oyanması ilə bağlıdır. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər üzərində qurulub. Hər il olduğu kimi, bu il də Azərbaycanda Novruz

bayramı təntənə ilə qeyd olunur. Bu da xalqımızın bayram sevincinə gözəl ovqat qatır.

İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.

Ulu Dədə Qorqud xeyir-dua verib, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzulayıb. Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdıqdan sonra bayram şənliyində nitq söyləyib.



Sonra Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ümumxalq şənliyinin iştirakçıları Dənizkənarı Milli Parka gəliblər.

Azərbaycanın müxtəlif bölgələrindən gələn özfəaliyyət dərnəklərinin, rəqs və mahnı qruplarının çıxışları maraqla qarşılanıb. Dövlətimizin başçısını və xanımını Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşılayıblar. Prezidenti və xanımını Kosa və Keçəl bayram münasibətilə təbrik edib, dövlətimizin başçısı ilə yumurta döyüşdürüblər.

Şənlik iştirakçılarının tanış olduqları "Novruz" yarmarkasında bərəkətli Azərbaycan torpağında yetişdirilmiş məhsullar nümayiş etdirilib. Yarmarkada ölkəmizin iqtisadi rayonlarından onlarla şirkət öz məhsullarını təqdim edib. Son dövrlərdə ölkəmizdə aparılan siyasət nəticəsində digər sahələrdə olduğu kimi, kənd təsərrüfatında da mühüm nailiyyətlər əldə olunub. Bu gün Azərbaycan özünü keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin edir. Bu isə ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Ona görə də ekoloji cəhətdən təmizliyi ilə seçilən Azərbaycan məhsullarına dünyada böyük tələbat var.

Milli Parkda xalqımızın qədim ənənələrini, dəyərlərini, mətbəxini, məişətini əks etdirən stendlər təşkil olunub. Burada ölkəmizin müxtəlif bölgələrini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışları və hazırlanmış sənətkarlıq nümunələri maraqla qarşılanıb. Bir tərəfdə isə gənc pəhləvanlar qurşaq tutub, idmançılar məharətlərini göstəriblər. Ulu babalarımızdan bugünkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş olunduğu şənlikdə, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri də yer alıb.




Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və şənliyin digər iştirakçıları bu səhnələri maraqla izləyib, qədim el sənətlərinin nümunələrinə, Azərbaycan xalçalarına baxıb, pəhləvanların, güləşçilərin çıxışlarına tamaşa edib, aşıqların, "Nənələr", "Rəfti" özfəaliyyət kollektivlərinin, "Natiq" ritm qrupunun, Azər-

baycan Dövlət Kukla Teatrının nəzdindəki "Oyuq" teatr-studiyasının kollektivinin ifalarını dinləyiblər.

Bayram şənliyində, həmçinin "İctimai Wi-Fi" layihəsi barədə təqdimat nümayiş olunub.

Dövlətimizin başçısına və xanımına bu ilin mayında keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarının ilk biletləri təqdim olunub. Prezident və xanımı Olimpiya çempionları, Formula-1 Azərbaycan Qran-Prisinin və IV İslam Həmrəyliyi Oyunlarının könüllüləri ilə görüşüblər.



Ümumxalq şənliyinin iştirakçıları müxtəlif rayonlardan gətirilmiş Novruz mətbəxinin ləziz təamlarından, bu bayramın rəmzi olan şirniyyat nümunələrindən dadıblar.

Azərbaycan Prezidenti onun pişvazına və bayram gəzintisinə çıxmış Bakı sakinlərinə və paytaxtımızın yüksək səviyyəli qonaqlarına Novruz münasibətilə bir daha xoş arzularını yetirib.

Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

Bayram şənliyi incəsənət ustalarının, el sənətkarlarının ifasında rəngarəng konsert proqramı ilə davam edib.

# Ölkə Prezidentinin növbəti humanist addımı

**Martın 16-da, Novruz bayramı ərəfəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin əfv haqqında müraciətlərinə baxaraq, məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, cəza çəkdikləri müddətdə davranışlarını nəzərə alaraq, o cümlədən humanizm prinsiplərinə əsaslanaraq "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam imzalayıb.**

Sərəncama əsasən, azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş 412 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. Bundan başqa, ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş iki nəfərdən birinin cəzası 25, digərininki isə 15 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəzlənib. Ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və cəzasının çəkilməsi təxirə salınmış bir nəfər cəzadan azad edilib. Həmçinin azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş 4 nəfər cəzadan azad olunub. Bir nəfər islah işləri, 3 nəfər isə cərimə cəzalarından azad edilib. Əfv olunan şəxslər arasında xarici ölkələrin vətəndaşları da var.

Əfv Sərəncamının icrası Ədliyyə Nazirliyinin məsul işçilərinin, Penitensiar xidmətin rəhbərliyinin, ədliyyə naziri yanında fəaliyyət göstərən İctimai komitənin üzvlərinin, insan hüquqları üzrə müvəkkilin - Ombudsmanın, qeyri-hökumət və dövlət təşkilatlarının, habelə kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə təxirəsalınmadan həyata keçirilib.

Ədliyyə Nazirliyinin və Penitensiar Xidmətin məsul əməkdaşları məhkumların saxlanıldıqları cəzaçəkmə müəssisələrində olub, Sərəncamın vaxtında icrasını təmin ediblər.

Prezident tərəfindən əfv olunmuş şəxslər



Penitensiar Xidmətin tabeliyindəki cəzaçəkmə müəssisələrindən azadlığa buraxılıblar. Bununla əlaqədar keçirilən tədbirlərdə çıxış edənlər vurğulayıblar ki, əfv Sərəncamı bir qayda olaraq, cəzaçəkmə müəssisələrində nümunəvi davranışları ilə fərqlənən, həqiqətən islah olunmuş məhkumlara şamil edilir. Əfv olunan şəxslərin bu humanist aktdan düzgün nəticə çıxaracaqlarına, Azərbaycan dövlətinin qanunlarına əməl edəcəklərinə və cəmiyyətə adaptasiya olacaqlarına əminlik ifadə edilib. Çıxış edənlər Novruz bayramı münasibətilə məhkumlara və onların ailə üzvlərinə təbriklərini çatdırıblar.

Cəzaçəkmə müəssisələrində əfv edilmiş şəxslərə azad olunmaları barədə buraxılış vərəqələri təqdim olunub.

Azadlığa çıxan şəxslər və onları qarşılamağa gəlmiş ailə üzvləri, yaxınları göstərdiyi humanistliyə görə dövlətimizin başçısı İlham Əliyevə və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

***

Qeyd olunmalıdır ki, insan hüquq və azadlıqlarının etibarlı təmin olunmasına daim xüsusi önəm verən Azərbaycanda humanizm ənənələrinin təməli ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra qoyulub, əfv və amnistiya təsisatları yaradılıb.

Ulu Öndərin təşəbbüsü ilə 1995-2003-cü illərdə 77 mindən artıq insanı əhatə edən 7 amnistiya aktı qəbul olunub, dahi rəhbərin imzaladığı 32 əfv fərmanı ilə 3 mindən artıq şəxs bağışlanaraq cəzalarından azad edilib. Məhz Heydər Əliyevin humanizminin nəticəsi olaraq ölkəmizdə ölüm hökmü aradan qaldırılıb və Azərbaycanın adı Şərqdə ilk olaraq bu cəzanı ləğv edən ölkə kimi tarixə düşüb. Əvvəlcə ölüm hökmü üzərində moratorium qoyulub, 1998-ci ildə isə bu cəza tamamilə ləğv edilib.

Ümummilli Liderin humanizm siyasətinə sadiqlik möhtərəm Prezidentimiz cənab İlham Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Heydər Əliyevin möhkəm təməllər üzərində əsasını qoyduğu humanizm siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev əfvetmə institutunun çevik və işlək mexanizm əsasında fəaliyyətini təmin edib, hər zaman mərhəmət, insanpərvərlik və humanizm məfkurəsindən çıxış edərək cinayət törətmiş şəxslərin bağışlanması ənənəsini yaşadıb, inkişaf etdirib.

Ulu Öndərin humanizm ideyalarını həyata keçirmək Heydər Əliyev Fondunun da başlıca məramlarından biridir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul edilmiş 4 amnistiya aktının 40 minə yaxın insana şamil olunması cinayət törətmiş şəxslərin islah olunması və cəmiyyətə yenidən inteqrasiyasına xidmət edib.

Azərbaycan Prezidentinin son əfv Sərəncamı respublikamızın humanizm prinsipləri əsasında inkişaf yolu seçdiyini bir daha nümayiş etdirir. Bu sərəncamla əfv olunanlar isə dövlətin onlara etimadını doğrultmalı, azadlığın qədrini qiymətləndirməli, layiqli vətəndaş kimi cəmiyyət həyatına öz töhfələrini verməlidirlər.

*Məlum olduğu kimi, 10 fevral 2017-ci il tarixdə dövlət başçısı tərəfindən "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncam imzalanmışdır. Bununla əlaqədar ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov Sərəncamın qəbulundan ötən 1 ay ərzində görülən işlərlə bağlı müsahibə vermişdir. Azərbaycan, rus və ingilis dillərində müxtəlif KİV-lərdə, o cümlədən AzərTAc, İnterfax informasiya agentliklərində, digər xəbər portallarında və mətbuatda geniş yayılmış müsahibə ictimaiyyət tərəfindən böyük maraqla qarşılanmışdır.*

*Həmin müsahibə oxucularımızın diqqətinə təqdim olunur.*

# Cəza siyasətinin humanistləşdirilməsi insan hüquqlarının təmin olunmasına xidmət edir

**- Fikrət müəllim, dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı 10 fevral 2017-ci il tarixli Sərəncamını ölkəmizdə həyata keçirilən hüquqi islahatların davamı kimi qiymətləndirmək olarmı?**

- Məlum olduğu kimi ölkə Prezidenti cənab İlham Əliyev fəaliyyətinin ilk günlərindən ədalət mühakiməsinin səmərəsinin artırılmasına xüsusi diqqət yetirmiş, ölkəmizin məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi üzrə ardıcıl tədbirlər görülmüşdür. Həmçinin, cəzaların icrası ilə bağlı fəaliyyətin müasir dövrün tələblərinə uyğun qurulması diqqətdən kənarda qalmamış, bu sahədə dövlət siyasətinin təzahürü olaraq həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında ayrıca qanun qəbul edilmiş, onların imtiyazları genişləndirilmiş, saxlanma şəraiti, tibbi və digər təminatlarının yaxşılaşdırılmasına xüsusi əhəmiyyət verilmişdir.

10 fevral 2017-ci il tarixli Sərəncam isə hüquq sistemində mütərəqqi islahatların daha intensiv davamına rəvac verməklə, bu sahədə sürətli təkamülün əsasını qoymuşdur.

Sərəncamın məqsədi ölkəmizin inkişafı və əldə edilən hərtərəfli uğurlar fonunda cəza siyasətinə, cinayət qanunvericiliyinə, məhkumların hüquqlarının təminatı məsələlərinə baxışın yenilənməsi, penitensiar sistemin fəaliyyətinin təkmilləşdirilməsi, bu sahədə dünyada mövcud olan mütərəqqi təcrübələrin tətbiqidir.

Möhtərəm Prezidentimizin insan haqlarının, o cümlədən məhkumların hüquqlarının daha etibarlı təmin olunmasına həssas münasibətinin növbəti təzahürü olan və proqram xarakteri daşıyan bu Sərəncam, eyni zamanda, strateji hədəfləri müəyyən etməklə məhkəmə, ədliyyə, prokurorluq və istintaq orqanları üçün bir "yol xəritəsi"dir.

Sərəncamda qarşıya qoyulmuş hər bir vəzifəni ətraflı təhlil edib onların vaxtında, mütəşəkkil və dürüst icrasını təmin etmək məqsədilə bu məsələ təxirəsalınmadan Ədliyyə Nazirliyi Kollegıyasının geniş iclasının müzakirəsinə çıxarılmış, konkret tədbirlər müəyyən edilmiş, elektron nəzarət vasitələrinin funksionallığına və tətbiqi qaydalarına dair prezentasiya keçirilmişdir.

Həmçinin Sərəncamdan irəli gələn vəzifələr Ali Məhkəmədə hakimlərin, dövlət ittihamçılarının və istintaq orqanları rəhbərlərinin iştirakı ilə keçirilmiş geniş müşavirədə müzakirə olunmuş, Ədliyyə Nazirliyi, Baş Prokurorluq və Ali Məhkəmənin təcrübəli əməkdaşlarından ibarət işçi qrupu yaradılmışdır.

Qarşıda duran vəzifələrlə əlaqədar ədliyyə işçiləri və hakimlərlə yerlərdə mütəmadi müşavirələr keçirilərək, aidiyyəti tapşırıq və tövsiyələr verilir, sərəncamın humanist mahiyyətinin ictimaiyyətə çatdırılması məqsədilə nazirliyin rəhbərliyi və əməkdaşları tərəfindən əhatəli maarifləndirmə işləri aparılır.

Sərəncamın icrası ilə bağlı görülmüş tədbirlər barədə Nazirlik tərəfindən hər altı aydan bir ölkə Prezidentinə məlumat verilməsi isə hər birimizi səfərbər etməklə üzərimizə böyük məsuliyyət qoyur.

**- Dövlət başçısının qeyd edilən sərəncamını ölkəmizdə humanizm siyasətinin davamı kimi də qəbul etmək olarmı?**



- Şübhəsiz. Sərəncamın əsas məqsədlərindən biri məhz cəza siyasətinin humanistləşdirilməsi, məhkumların və təqsirləndirilən şəxslərin hüquqlarının etibarlı təminatıdır.

Bu gün əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş humanizm siyasətinə sadiqlik dövlət idarəçiliyinin əsas prinsiplərindən birinə çevrilmişdir. Təkcə onu demək kifayətdir ki, möhtərəm Prezidentimizin ötən dövrdə imzaladığı qərarlarla 3.400-ə yaxın məhkum əfv edilmişdir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən hər zaman mərhəmət, insanpərvərlik məfkurəsindən çıxış edilərək onun təşəbbüsü ilə qəbul edilmiş 4 amnistiya aktının 40 minə yaxın insana şamil olunması cinayət törətmiş şəxslərin islah olunması və cəmiyyətə yenidən inteqrasiyasına xidmət etmişdir. Burada böyük məmnunluqla vurğulamaq istərdim ki, Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması cəmiyyətdə böyük rəğbət və sevinc hissi doğurmuş, onun çoxşaxəli və əzmkar fəaliyyətinin ölkəmizin hərtərəfli inkişafına mühüm töhfələr verəcəyinə, o cümlədən insanların sosial vəziyyətinin yaxşılaşdırılmasına, elmin, təhsilin və səhiyyənin inkişafına hesablanmış mühüm layihələrin müvəffəqiyyətlə icrasına, humanizm, tolerantlıq ideya və prinsiplərinin, bu sahədə dövlət siyasətinin bundan sonra da uğurla inkişaf edəcəyinə qəti əminlik yaratmışdır.

Eyni zamanda, ölkə Prezidentinin təşəbbüsü ilə ötən il iqtisadi sahədə bəzi əməllərin dekriminallaşdırılması ilə bağlı cinayət qanunvericiliyinə mühüm dəyişikliklər edilmişdir. Ədliyyə Nazirliyi tərəfindən yeni qanunun təsiri altına düşən şəxslərin dairəsi müəyyən olunaraq 1400-dən çox məhkum barədə məhkəmələrə təqdimat göndərilmiş və onların bir çoxu cəza çəkməkdən azad edilmiş, yaxud cəza müddətləri azaldılmışdır.

Heç şübhəsiz dövlət başçısının yeni Sərəncamı da nəticə etibarilə məhkumların hüquqlarının etibarlı təminatına, bir sıra cinayətlərin dekriminallaşmasına, cəza siyasətinin humanistləşdirilməsinə, azadlıqdan məhrum etməyə alternativ cəzaların tətbiqinin genişlənməsinə şərait yaradacaqdır.

**-Sərəncamda məhkəmələr tərəfindən həbs qətimkan tədbirinin geniş tətbiqi və azadlıqdan məhrum etmənin dinamikasının artmasının penitensiar müəssisələrin yüklənməsinə səbəb olduğu bildirilir, bununla bağlı zəruri tapşırıqlar nəzərdə tutulur. Bəs bu sahədə hazırda hansı işlər görülür?**

- İlk növbədə qeyd etmək istərdim ki, yeni hüquq sisteminin fəaliyyət göstərdiyi 2000-ci ildən əhalinin 20%-dək artmasına baxmayaraq, bütövlükdə məhkumetmənin çoxalmaması ölkəmizdə ictimai təhlükəsizliyin və hüquq qaydasının təmin edilməsində önəmli nailiyyətdir. Lakin təəssüf ki, məhkumlar sırasında azadlıqdan məhrum olunanların sayı əvvəlki illərlə müqayisədə artmışdır.

Təhlillər göstərir ki, məhkəmələrin cəza siyasətində azadlıqdan məhrumetməyə, habelə həbs qətimkan tədbirinin seçilməsinə üstünlük verilməsi penitensiar müəssisələrdə saxlanılan məhkumların və təqsirləndirilən şəxslərin sayının çoxalmasına və həmin müəssisələrin yüklənməsinə, ən əsası isə insanların azadlıq hüququnun lüzumsuz məhdudlaşdırılmasına səbəb olmuşdur.

Qeyd etmək istərdim ki, bir neçə il əvvəl həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı məhkəmə təcrübəsi Ali Məhkəmə tərəfindən ümumiləşdirilərək Plenumun müzakirəsinə çıxarılmış və əhatəli qərar qəbul edilmişdir. Həmçinin, məhkəmələrə bu məsələyə həssaslıqla yanaşılması, o cümlədən İnsan hüquqları üzrə Avropa Konvensiyası və Avropa Məhkəməsinin presedentlərinin, cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq həbsə alternativ qətimkan tədbirlərinin geniş tətbiqi tövsiyə edilmişdir. Hətta bu sahədə kobud pozuntulara görə 30-dək hakim və prokurorluq işçisi ciddi intizam məsuliyyətinə cəlb edilmiş, o cümlədən 3 hakimin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilmişdir. Məhkəmə-Hüquq Şurasının ötən ay keçirilmiş iclasında isə insan haqlarının, xüsusilə azadlıq hüququnun qorunmasında hakimlərin yüksək məsuliyyəti diqqətə çatdırılmış, bu mənada həbs qətimkan tədbirinin seçilməsinə həssas yanaşılmanın vacibliyi bildirilmişdir.

Lakin məhkəmə təcrübəsinin təhlili bu sahədə pozuntuların tam aradan qaldırılmadığını, habelə cəza siyasətinin dövlət başçısının humanizm prinsipləri ilə uzlaşmadığını göstərmişdir. Bununla əlaqədar Sərəncamda verilmiş tövsiyələrin icrası məqsədilə hazırda Ali Məhkəmə tərəfindən bu sahədə məhkəmə təcrübəsi və bütövlükdə cəza siyasəti təhlil olunaraq ümumiləşdirilir və nəticələrin tezliklə geniş müzakirəsi nəzərdə tutulur.

Cənab Prezidentin humanizm dəyərlərindən irəli gələn tapşırıqlarından biri də cinayət qanunvericiliyinin yenidən nəzərdən keçirilməklə cəza siyasətinin humanistləşdirilməsi məqsədilə yeni qanun layihələrinin hazırlanmasıdır.

Bununla əlaqədar qanunvericiliyə bir sıra, o cümlədən iqtisadi sahədə törədilən cinayətlərin dekriminallaşdırılması, cinayətlərin sanksiyalarına azadlıqdan məhrumetməyə alternativ cəzaların əlavə olunması ilə bağlı, habelə, mövcud alternativ cəzaların, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və şərti məhkum etmə institutlarının, həbsə alternativ olan qətimkan tədbirlərinin daha geniş tətbiqinə imkan verən dəyişikliklərin edilməsi nəzərdə tutulmuşdur. Artıq Ədliyyə Nazirliyi, Baş Prokurorluq və Ali Məhkəmənin birgə işçi qrupu tərəfindən müvafiq qanunvericilik layihələri hazırlanır.

Onu da qeyd etmək lazımdır ki, sərəncamda nəzərdə tutulmuş tövsiyə və tapşırıqların dərhal icrasına başlanılmasının nəticəsidir ki, təkcə keçən ay ərzində 250-dən çox həbsdə olan şəxs qanunla müəyyən edilmiş qaydada istintaq təcridxanalarından azadlığa buraxılmışdır. Həmçinin istintaq təcridxanalarına daxil olan həbs edilmiş şəxslərin sayı da xeyli azalmışdır. Hesab edirəm ki, bunlar sərəncamın məqsədi baxımından mühüm göstəricilərdir.

Sərəncamın əsas yeniliklərindən biri də cəzaların icrası və qətimkan tədbirlərinin tətbiqi zamanı müasir elektron nəzarət vasitələrindən istifadə ilə bağlıdır. Təbii ki, belə vasitələrin tətbiqi cəmiyyətdən təcrid edilmə ilə əlaqədar olmayan qətimkan tədbirlərinin və cəzaların daha geniş tətbiqinə şərait yaradacaqdır.

Qeyd etmək istərdim ki, elektron nəzarət üsullarından ən geniş yayılanı "elektron qolbaq" qurğusudur. Bu qolbaq həbslə bağlı olmayan cəzanın çəkildiyi, yaxud qətimkan tədbirinin seçildiyi müddət ərzində şəxsin qoluna bərkidilir və texniki vasitələrlə onun coğrafi yeri müəyyən edilir. Bunun ölkəmizdə tətbiqi məqsədilə beynəlxalq təcrübə öyrənilmiş, "elektron qolbaq"ların müxtəlif nümunələrinin təqdimatı keçirilmişdir. Artıq dövlət başçısının

tapşırıqlarına uyğun olaraq qeyd edilən məsələ üzrə normativ hüquqi aktlara dəyişikliklərin edilməsi üçün Baş Prokurorluqla birlikdə müvafiq təkliflər hazırlanmışdır.

**-Sərəncamın müəyyən etdiyi mühüm yeniliklərdən biri Ədliyyə Nazirliyinin Probasiya xidmətinin yaradılmasıdır. Ölkəmiz üçün yeni olan bu institut haqqında qısa məlumat və onun tətbiqi ilə bağlı görülən işlər xüsusilə maraqlı olardı.**

- Beynəlxalq təcrübədə probasiya institutu azadlıqdan məhrum edilməyən məhkumların, yaxud həbs olunmamış təqsirləndirilən şəxslərin müəyyən müddətə xüsusi orqanın nəzarətinə verilməsini nəzərdə tutur. Bu institutun geniş tətbiqi təbii ki, məhkumların cəzaçəkmə müəssisəsindən kənar, bilavasitə cəmiyyətdə islahına şərait yaradır. Probasiya əsasən anqlosakson hüquq sisteminə malik olan ölkələrdə daha geniş yayılmışdır. Həmin ölkələrdə məhkəmələr probasiya rejiminin seçilməsinin mümkünlüyü haqqında qərar qəbul edərək, məhkumu müəyyən müddətə onun davranışına nəzarət edəcək Probasiya xidməti əməkdaşının müşahidəsi altına verir.

Müxtəlif dövlətlərdə probasiya rejiminin müddətləri əsasən 6 aydan 10 ilə qədər dəyişir. Bu müddət ərzində həmin məhkumlar məhkəmənin qərarında nəzərdə tutulmuş şərtlər daxilində müəyyən olunmuş qaydalara riayət etməyə borcludurlar.

Əks təqdirdə probasiya əməkdaşının məhkəməyə müraciəti əsasında müəyyən edilmiş şərtlər dəyişdirilə bilər. Yaxud əgər probasiya əməkdaşının məhkum barədə müşahidələri islah yönümündə olarsa, o zaman məhkəmə probasiyanın tamamilə ləğv olunması və ya sınaq müddətinin azaldılması ilə bağlı qərar qəbul edə bilər.

Probasiya rejiminin tətbiqi əməlin xarakterindən və ictimai təhlükəlilik dərəcəsindən də asılıdır. Probasiyanın maraqlı tərəflərindən biri də ondan ibarətdir ki, o, bir sıra ölkələrdə əsas cəza kimi də təyin edilir.

Son illər Avropada həbs yerlərində saxlanılan şəxslərin sayının artması ilə əlaqədar bu xidmətin yaradılması üzrə səylər artırılmış və Avropa Şurasının Nazirlər Komitəsi onun təşkili məqsədilə 20 yanvar 2010-ci il tarixdə "Probasiya qaydaları haqqında" Tövsiyə qəbul etmişdir.

Hazırda Ədliyyə Nazirliyi tərəfindən Avropa İttifaqı ilə birgə həyata keçirilən ədliyyə sisteminin inkişafına dəstək layihəsi çərçivəsində ölkəmizdə Probasiya xidmətinin əsasları, əməkdaşlar üçün təlim kurslarının keçirilməsi, məhkumlar üzərində elektron monitorinqin tətbiqi ilə bağlı pilot layihələr hazırlanır.

Bu sahədə beynəlxalq təcrübədən yararlanmaq məqsədilə əməkdaşlarımız dünyada mövcud modellərlə tanış olmaq üçün xarici ölkələrə ezam edilmişlər. Gürcüstanın ədliyyə nazirinin ötən ay Azərbaycana səfəri zamanı həmin ölkənin probasiya xidməti və "elektron qolbaq"ın tətbiqi ilə bağlı müzakirələr keçirilmiş və bu təcrübə ilə tanış olmaq məqsədilə nümayəndə heyətimiz təxirəsalınmadan Gürcüstana səfər etmişdir. Bundan əvvəl isə Türkiyənin bu sahədə təcrübəsi tərəfimizdən yerində öyrənilmişdir.

Bu xidmətin ölkəmizdə təşkili ilə bağlı dövlət başçısının tapşırıqlarına uyğun olaraq artıq konkret təkliflər paketi hazırlanmışdır.

Həmçinin, azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəza növü kimi ictimai işlər cazasının əhəmiyyətinin artırılması baxımından Sərəncamda mühüm tapşırıqlar nəzərdə tutulmuşdur. Bununla əlaqədar nazirlik tərəfindən zəruri tədbirlər görülür, o cümlədən məhkumların ictimai işlər növündə cəzanı çəkməkdən yayınmasına şərait yaradılmasına görə vəzifəli şəxslərin məsuliyyətini müəyyən edən qanun layihəsi hazırlanır. Hesab edirəm ki, yeni yaradılacaq probasiya xidməti də bu sahədə problemlərin aradan qaldırılmasında və həmin cəzanın islahedici təsirinin artırılmasında əhəmiyyətli rol oynayacaqdır.

Eyni zamanda mediasiya institutundan, yəni mübahisələrin məhkəmədənkənar alternativ həlli üsullarından da geniş istifadə olunması nəzərdə tutulur.

**- Mediasiyanın tətbiqi də ölkəmiz üçün mühüm yeniliklərdən ola bilər. Bu institut barədə bir qədər geniş məlumat verməyinizi istərdik.**

Mülki xarakterli mübahisələrin həllində mühüm vasitə olan mediasiya institutu həm də cinayət-hüquqi xarakterli münaqişələrin alternativ, məhkəmədən kənar həlli məqsədi daşıyır. Həmin institut hazırda bir çox inkişaf etmiş ölkələrdə geniş tətbiq olunur.

Mediasiya prosesində təqsirləndirilən şəxs və ya məhkumla zərərçəkmiş arasında məhkəməyəqədər və ya məhkəmədən sonra barışıq əldə olunarsa, təqsirləndirilən şəxsin və ya məhkumun üzərinə müxtəlif xarakterli, o cümlədən vurulan maddi və ya mənəvi ziyanın ödənilməsi, üzr istənilməsi, yardım göstərilməsi və s. öhdəliklər qoyulmaqla o, cəzadan azad edilə bilər.

Bütün dünyada mütərəqqi institut kimi mediasiyanın tətbiqi təşviq edilir, bu məqsədilə Avropa Şurası tərəfindən hələ 1999-cu ildə "Cinayət işlərində mediasiyaya dair" Tövsiyə, Birləşmiş Millətlər Təşkilatı tərəfindən isə 2002-ci ildə "Cinayət mühakiməsi prosesində bərpaedici ədliyyə proqramlarının tətbiqinin əsas prinsipləri" qəbul olunmuşdur.

Ölkəmizdə də mediasiya institutunun yaradılması gündəlikdə olmuş, bu məqsədlə ötən dövrdə bir sıra addımlar atılmış, o cümlədən beynəlxalq təcrübə öyrənilmiş və Azərbaycan üçün potensial mediasiya modelinə dair təkliflər hazırlanmışdır.

Dövlət başçısının ötən ilin dekabrında təsdiq etdiyi "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə cari ildə mediasiya haqqında qanun layihəsinin hazırlanması və Mediasiya Şurasının yaradılması ilə bağlı konkret tapşırıqların verilməsi şübhəsiz ki, ölkəmizdə bu institutun inkişafına təkan olacaqdır.

**- Sərəncamda penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsinə dair görülməli konkret və əhatəli tədbirlər müəyyən edilmişdir. Yəqin ki, həmin tapşırıqların icrası bu sahədə aparılan islahatları daha da sürətləndirəcəkdir.**

- Elədir. Penitensiar sahədə fəaliyyətin müasir tələblər səviyyəsində qurulması dövlət başçısının daim diqqət mərkəzində olmuşdur.

Bununla əlaqədar Sərəncamda bu sahədə fəaliyyətin müasirləşməsi, infrastrukturun yenilənməsi, məhkumların saxlanma şəraitinə nəzarətin gücləndirilməsi, istehsal sahələrinin genişlənməsi, peşəkar kadr korpusunun formalaşdırılması, müəssisələrin etibarlı mühafizəsinin təşkili, şəffaflığın artırılması, korrupsiyaya şərait yaradan və digər neqativ halların qarşısının alınması və s. ilə bağlı konkret tapşırıqlar verilmişdir.

Sərəncamda qoyulmuş məsələləri nüfuzlu beynəlxalq qurumlar da təqdir etmişdir. Bu yaxınlarda respublikamıza səfər etmiş İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) prezidenti Mikola Qnatovski Azərbaycan Prezidentinin Sərəncamını yeni cəza siyasətinin əsas təməl daşı kimi dəyərləndirmiş, sənədin mahiyyətinin Komitənin məqsədləri ilə üst-üstə düşdüyünü, onun penitensiar sistemin təkmilləşməsinə, məhkumların hüquqlarının etibarlı qorunmasına xidmət edəcəyini vurğulamışdır.

Məhkumların hüquqlarının təmin edilməsini daim prioritet hesab edən dövlətimizin başçısı hələ 2009-cu ildə Zabrat qəsəbəsində beynəlxalq tələblərə uyğun inşa olunmuş Bakı istintaq təcridxanasına baş çəkərək yaradılmış şəraitlə tanış olmuş, bu sahədə tədbirlərin davam etdirilməsi ilə bağlı zəruri göstərişlər vermişdir.

Bununla əlaqədar təqsirləndirilən şəxslərin və məhkumların yaşayış yerlərinə yaxın ərazilərdə cəza çəkmələri məqsədilə bölgələrdə penitensiar infrastrukturun yaradılması istiqamətində mühüm işlər görülmüş, Naxçıvan Muxtar Respublikasında və Şəkidə müasir penitensiar komplekslər inşa olunaraq istifadəyə verilmişdir. Hazırda Gəncə və Lənkəran şəhərlərində, habelə Bakının Zabrat qəsəbəsində qadın və yetkinlik yaşına çatmayan, Umbakıda isə ömürlük azadlıqdan məhrum edilmiş məhkumların saxlanılması üçün belə müəssisələrin tikintisi aparılır.

Son illər məhkumlara göstərilən tibbi yardımın keyfiyyətinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görülmüş, beynəlxalq təşkilatlarla sıx əməkdaşlıqda bu sahədə, o cümlədən məhkumlar arasında vərəmlə mübarizədə digər dövlətlərə örnək olan yüksək nailiyyətlər qazanılmışdır. Təsadüfi deyil ki, son 20 ildə məhkumlar arasında ölüm halları xeyli, vərəmdən ölüm isə 100 dəfə azalmışdır. Bununla yanaşı penitensiar müəssisələrdə tibb xidmətinin yaxşılaşdırılması və məhkumların sağlamlığının qorunması ilə bağlı qarşımızda əlavə mühüm vəzifələr qoyulmuş, bununla əlaqədar konkret tədbirlər müəyyən olunaraq həyata keçirilməyə başlanılmışdır.

Həmçinin, Avropa İttifaqı ilə Ədliyyə Nazirliyinin birgə həyata keçirdiyi "Ədliyyə sahəsində islahatlara dəstək" Proqramı çərçivəsində məhkumların əməyə daha geniş cəlb edilməsinə xüsusi diqqət ayrılmışdır. Layihə çərçivəsində artıq bir sıra

cəzaçəkmə müəssisələrində yeni istehsalat sahələri yaradılmış, bəzi mövcud istehsalat və fərdi əmək sahələri dəzgah və alətlərlə yenilənmiş, müxtəlif avadanlıqlar alınaraq müəssisələrə verilmişdir. Nəticədə 2016-cı il ərzində cəzaçəkmə müəssisələrində əməyə cəlb olunanların sayı artaraq 5.400-ü ötmüşdür. Bir müddət əvvəl isə ictimaiyyət nümayəndələrini, habelə iş adamlarını cəlb etməklə məhkumların istehsal etdikləri məhsullar, onların əl işləri ilə bağlı sərgilər təşkil olunmuşdur. Belə tədbirlərin keçirilməsi də əhəmiyyətlidir. Bu, həm də məhkumların məşğulluğunun artırılmasına, cinayətlə vurulmuş ziyanın ödənilməsinə, onların zərərli vərdişlərə meyl etməkdən çəkindirilməsinə xidmət edir.

Lakin təbii ki, bu sahədə görülən işlər heç də kifayət deyil. Dövlət başçısının mövcud istehsal sahələrinin bərpa edilməsi və yeni sahələrin yaradılması, bu fəaliyyətə sahibkarların, iş adamlarının cəlb olunması ilə bağlı tapşırıqları qarşımızda yeni prioritetlər qoymuşdur. Hazırda aidiyyəti qurumlarla sıx əlaqələr qurmaq və yeni yanaşmalar tətbiq etməklə bu sahədə köklü dəyişikliklərə nail olmaq üçün tədbirlər hazırlanır.

Fəaliyyətdə müsbət nəticələr əldə edilməsi düzgün kadr siyasətinin aparılmasından da çox asılıdır. Penitensiar xidmətin hazırlıqlı və mənəvi cəhətdən saf gənc kadrlar hesabına komplektləşdirilməsi məqsədi ilə mütəmadi olaraq qulluğa qəbulla bağlı açıq müsabiqələr keçirilir. Həmçinin Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Ryazan Hüquq və İdarəçilik Akademiyası ilə bağlanılmış müqaviləyə əsasən Akademiyada, habelə Nazirlər Kabinetinin qərarına uyğun olaraq Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsində xüsusi olaraq penitensiar sistem üçün yüksək ixtisaslı mütəxəssislər hazırlanaraq nazirliyin sərəncamına göndərilir.

Son illər 950 nəfərdən çox mütəxəssis Penitensiar xidmətdə qulluğa qəbul olunmuşdur. Bu günlərdə isə növbəti böyük bir qrup gənc mütəxəssislərin təyinatı həyata keçirilmişdir. Gənc əməkdaşların hazırlıq səviyyəsinin artırılması məqsədilə onların Ədliyyə Akademiyasında təlimlərə, ixtisasartırma kurslarına cəlb olunmasına böyük önəm verilir, habelə gənclərin hərtərəfli, o cümlədən mənəvi-estetik dünyagörüşünün inkişafı məqsədilə müvafiq mədəni tədbirlər təşkil olunur.

Bununla belə penitensiar xidmətdə vəzifələrə təyinatın daha çevik və qısa müddətdə aparılması, əməkdaşların bilik, bacarıq və praktiki vərdişlərinin inkişaf etdirilməsi, işçilərin fəaliyyətinin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi məqsədilə zəruri tədbirlər müəyyən edilmiş, aidiyyəti rəhbər şəxslərə konkret tapşırıqlar verilmişdir.

Cəzaçəkmə müəssisələrinin etibarlı mühafizəsi də mühüm əhəmiyyət kəsb edən sahə olmaqla, nizam-intizamın, rejimin, təhlükəsizliyin təmin olunmasına mühüm təsir göstərir. Sərəncamda verilmiş tapşırıqlara uyğun olaraq penitensiar xidmətin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə tam komplektləşdirilməsi bu sahədə işin keyfiyyətinin artırılmasına zəruri töhfə verəcəkdir.

Həmçinin, "Cəza çəkən məhkumlar və həbs edilmiş şəxslər" informasiya sisteminin təşkili ilə bağlı dövlət başçısının tapşırıqlarının icrası qarşımızda duran əsas vəzifələrdəndir. Bununla əlaqədar hazırda Penitensiar xidmətdə mövcud elektron baza sisteminin genişləndirilməsi üzrə işlər aparılır və bu zaman cəzaları icra edən orqan və müəssisələr arasında real vaxt rejimində qarşılıqlı məlumat mübadiləsinin təmin olunmasına, belə sistemlərlə bağlı qabaqcıl beynəlxalq təşkilatların müəyyən etdiyi meyarların tətbiqinə xüsusi diqqət yetirilir.

Bununla yanaşı, sərəncamda məntəqə tipli cəzaçəkmə müəssisələrində cəzanın Cəzaların İcrası Məcəlləsində nəzərdə tutulmuş qaydada çəkilməsi və məhkumlar tərəfindən rejim qaydalarına ciddi riayət olunması, bu sahədə korrupsiyaya şərait yaradan və digər neqativ halların qarşısının alınması üçün tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

Dövlət başçısının tapşırıqlarının icrası və bu sahədə köklü dəyişikliklərə nail olunması üçün təsirli tədbirlər müəyyən olunaraq təxirəsalınmadan zəruri işlərin görülməsinə başlanılmışdır.

**-Sərəncamda məhkumların cəzadan vaxtından əvvəl azad etmə institutunun geniş tətbiqi ilə bağlı məsələ qaldırılmışdır. Bu barədə nə deyə bilərsiniz?**

- Məhkum olunmuş şəxslərin cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz olunması cəza icra siyasətində ən mühüm ins-

titutlardan biridir.

Təbii ki, burada məhkumun cəzanın qanunla müəyyən edilmiş hissəsini çəkməsi, onun davranışı, əməyə münasibəti və barəsində cəzaçəkmə müəssisəsinin müsbət mülahizəsi əsas amillərdir. Bununla əlaqədar Ali Məhkəmə tərəfindən vaxtilə məhkəmə təcrübəsi ümumiləşdirilərək əhatəli Qərar qəbul olunmuş, məhkəmələrdə bu xarakterli müraciətlərə baxılarkən qanunun tələblərinə ciddi əməl olunması, hər məhkuma fərdi yanaşılması, eyni zamanda, qərar qəbul edildikdən sonra həmin qərarın təxirəsalınmadan icrası və digər mühüm məsələlər önə çəkilmişdir.

Həmçinin, Məhkəmə-Hüquq Şurası tərəfindən bu sahədə kobud qanun pozuntularına yol verən hakimlər barəsində ciddi intizam tədbirləri görülmüşdür.

Bu institutun tətbiqində neqativ halların aradan qaldırılması, kollegiallığın, obyektivliyin və şəffaflığın təmin olunması məqsədilə 2013-cü ildə Ədliyyə Nazirliyi tərəfindən tərkibi nazirliyin, o cümlədən Penitensiar xidmətin məsul işçilərindən, eləcə də ictimaiyyətin nümayəndələrindən və hüquq müdafiəçilərindən ibarət xüsusi Komissiya yaradılmışdır.

Komissiya tərəfindən ötən dövrdə 7 mindən çox məhkum vaxtından əvvəl şərti azad olunmağa və ya daha yüngül rejimli müəssisəyə keçirilməyə layiq bilinmiş, məhkəmələr tərəfindən baxılmış həmin işlərdən 97%-i müsbət həll edilmişdir. Şərti azad olunmuş şəxslər tərəfindən yenidən cinayət törətmə hallarının minimum olması, bu prosesin obyektivliyinə və həmin məhkumların həqiqi islah yolunda olmasına dəlalət etmişdir.

Komissiyanın fəaliyyətində şəffaflığın maksimum təmin olunması məqsədilə onun iclaslarına məhkumların valideynlərinin və yaxınlarının dəvət olunması təcrübəsindən də istifadə olunur. Bu prosesdə ədliyyə naziri yanında fəaliyyət göstərən nüfuzlu hüquq müdafiəçiləri və qeyri-hökumət təşkilatları nümayəndələrindən ibarət təşkil edilmiş İctimai Komitənin də töhfələri xüsusi qeyd olunmalıdır.

Hazırda dövlət başçısının tapşırıqlarına uyğun olaraq bu sahədə işin səmərəliliyinin artırılması, şəffaflığın tam təmin olunması üzrə əlavə tədbirlər görülür, şərti azadetmə institutunun təsiri altına düşən bütün məhkumların dairəsi müəyyən edilir. Məhkum kollektivləri ilə tərbiyəvi-maarifləndirmə tədbirləri keçirilərək onlara rejim qaydalarına dönmədən riayət edərlərsə, islah prosesinə, ictimai tədbirlərə fəal qatılarlarsa, nəhayət nümunəvi davranış nümayiş etdirərlərsə vaxtından əvvəl azad olunmağa layiq bilinəcəkləri izah olunur.

Yeri gəlmişkən onu da qeyd etmək istərdim ki, ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərin hüquqlarının təmin olunması da diqqətdən kənarda qalmır, bu cəza növünün tətbiqi təcrübəsi təhlil edilir, onun icrası mexanizmlərinin təkmilləşdirilməsi imkanları nəzərdən keçirilir.

Sözsüz ki, qeyd edilən humanist tədbirlərin tətbiqi məhkumların ailələrinə və yaxınlarına sevinc hissləri bəxş etməklə yanaşı, digər məhkumların da islahına stimul yaradır, onları qanunazidd hərəkətlərdən çəkinməyə sövq etməklə, haqqa və ədalətə inamını artırır.

Məhkumların azad cəmiyyətə tamhüquqlu üzv kimi qayıdışı da dövlətimizin daim diqqətində saxlanılır. 2007-ci ildə "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" ayrıca qanun qəbul olunmuşdur və belə şəxslər üçün hazırda Sosial Adaptasiya Mərkəzi inşa edilir.

**- Fikrət müəllim, sərəncamın icrasının başa çatması nə vaxta gözlənilir?**

Şübhəsiz ki, qarşıda qoyulmuş hər bir konkret vəzifə cənab Prezidentin tapşırıqlarına uyğun olaraq qısa müddətdə həllini tapacaqdır.

Eyni zamanda əvvəldə də dediyim kimi, bu sərəncam bizim üçün həm də strateji hədəfləri müəyyən edən "yol xəritəsi" rolunu oynayır və qeyd edilən sahələrdə gələcək fəaliyyətimizin əsasını təşkil edir.

Əminik ki, dövlət başçısının tapşırıqlarından irəli gələn vəzifələrin mütəşəkkil qaydada, vaxtında və dürüst icrası cəza siyasətinin humanistləşdirilməsinə, məhkumların hüquqlarının daha etibarlı qorunmasına xidmət etməklə, bu sahədə aparılan islahatların yeni mərhələdə davam etdirilməsinə təkan verəcəkdir.

**- Bizə vaxt ayırdığınıza və oxucularımızla dəyərli fikirlərinizi bölüşdüyünüzə görə Sizə təşəkkür edirik.**

# Penitensiar xidmətin kadr korpusu komplektləşdirilir




**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə sistemində aparılan islahatlar, həmçinin kadr seçimi prosesini əhatə edir, bu məqsədlə ədliyyənin müxtəlif sahələrinə işə qəbulla bağlı açıq müsabiqə və müsahibələr keçirilir. Bu zaman dövlət siyasətinə uyğun olaraq gənclərin işlə təminatına xüsusi diqqət yetirilir. Son illər şəffaf seçimlər əsasında yüksək hazırlıqlı, müasir texnologiyalara bələd və mənəvi cəhətdən saf 2200-dən çox gənc qulluğa qəbul olunub.**

Nazirlik tərəfindən, həmçinin penitensiar və tibb xidmətlərində ixtisaslı kadrlara ehtiyac nəzərə alınaraq təhsil müəssisələri ilə səmərəli əlaqələr qurulub, o cümlədən Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Ryazan Hüquq və İdarəçilik Akademiyasında, həmçinin Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsində müvafiq olaraq penitensiar və tibb sahələri üzrə nazirlik üçün xüsusi ixtisaslı gənc kadrlar hazırlanır. Ötən dövrdə aparılmış şəffaf seçimlər nəticəsində 950 nəfərdən çox gənc Penitensiar xidmətdə, 380-ə yaxın mütəxəssis isə tibb xidmətinə qulluğa qəbul olunub.

Bu sahədə mövcud vakansiyaların operativ komplektləşdirilməsi məqsədilə şəffaflıq və aşkarlıq şəraitində müsahibələr keçirilir, namizədlərin müsabiqələrdə geniş iştiraka dəvət olunması məqsədilə ictimaiyyət ətraflı məlumatlandırılır, o cümlədən "ASAN Kadr" Karyera Mərkəzinin portalında müvafiq elanlar verilir. Davamlı olaraq keçirilən müsahibələr nəticəsində uğur qazanmış namizədlər Ədliyyə Akademiyasında zəruri peşə bilik və



bacarıqlarına yiyələnmələri məqsədilə icbari təlimə cəlb olunublar.

Penitensiar xidmətin fəaliyyətin təkmilləşdirilməsinə, cəza siyasətinin humanistləşdirilməsinə və cəzaların icrası işinin müasir dövrün tələblərinə uyğun qurulmasına dair ölkə Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamı bu sahədə həyata keçirilən islahatları yeni mərhələyə qaldırmaqla, nazirliyin qarşısında mühüm konkret vəzifələr müəyyən edilib, o cümlədən xidmətin layiqli kadrlarla formalaşdırılması, əməkdaşların bilik, bacarıq və praktiki vərdişlərinin inkişaf etdirilməsi və fəaliyyətlərinin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi, habelə onların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tapşırıqlar verilib.

Martın 3-də ədliyyə naziri Fikrət Məmmədovun keçirilmiş müsahibələr nəticəsində uğur qazanmış və icbari təlimdən müvəffəqiyyətlə keçərək penitensiar və tibb xidmətlərinə təyinat alan 70 gənc əməkdaşla görüşü keçirilib.

Gənclər əvvəlcə Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri düzüb, əziz xatirəsini dərin ehtiramla yad ediblər. Sonra Şəhidlər xiyabanında xalqımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman Vətən övladlarının əziz xatirəsi anılıb, məzarları önünə tər çiçəklər qoyulub.

Nazirlikdə keçirilmiş tədbirdə ədliyyə naziri Fikrət Məmmədov çıxış edərək ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın davamlı tərəqqisinin, sabitliyin və təhlükəsizliyin təmin olunduğunu vurğulayıb, dövlətimizin gənclərin hərtərəfli inkişafına yüksək qayğısından bəhs edib.

Məhkəmə və ədliyyə, o cümlədən penitensiar sistemdə aparılan islahatlardan geniş söhbət açan nazir dövlət başçısının bu sahədə fəaliyyətin təkmilləşdirilməsi və qarşıda duran vəzifələrlə bağlı son Sərəncamı, habelə həmin xidmətdə qulluq keçmənin xüsusiyyətləri barədə məlumat verib, gənclərin işlərində məsuliyyətli olmasını, qanunçuluq, insan hüquqları, humanizm prinsiplərinə, etik davranış qaydalarına dönmədən əməl olunmasını, korrupsiya və digər neqativ halların yolverilməzliyini vurğulayıb, gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Çıxış edən gənclər müstəqil Azərbaycanımızın hərtərəfli tərəqqisi naminə ölkə başçısının ətrafında sıx birləşərək yorulmaz fəaliyyətində daim layiqli yardımçı olacaqlarını vurğulayıb, onlara göstərilən yüksək etimadı doğruldacaqlarına, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına və daim uca tutacaqlarına söz veriblər.

Daha sonra təyinat almış yeni əməkdaşlar Azərbaycan Respublikasının Dövlət Bayrağı önündə təntənəli qaydada and içiblər, aidiyyəti işçilərə xüsusi rütbələr verilib.

## ELAN

**Rusiya Federasiyasının Ryazan şəhərindəki Rusiya Federasiyası Ədliyyə Nazirliyinin Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəçilik Akademiyası ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidməti arasında Penitensiar xidmət üçün ixtisaslı kadrlar hazırlanması məqsədi ilə müqavilə bağlanmışdır.**

Müqavilə əsasında cari ilin may ayında keçiriləcək müsabiqədə layiq görülən namizədlər, rus dilini bilən və orta təhsil bazasında olan Azərbaycan Respublikası vətəndaşları təhsil almaq məqsədilə Penitensiar xidmət tərəfindən qeyd olunan Akademiyaya təhsil almağa göndərilirlər.

Akademiyada təhsil almağa layiq görülənlər 5 il müddətində dövlət tərəfindən təhsil alacaq, yataqxanada yaşayacaq, normaya uyğun olaraq gündə 3 dəfə yeməklə və xidməti forma ilə təmin olunacaqlar.

Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin "Hüquq və İdarəçilik" Akademiyasında təhsil almaq arzusunda olanlar 2017-ci ilin martın 10-dan mayın 5-dək Penitensiar xidmətin Kadrlar idarəsinə ərizə ilə müraciət edə bilərlər.

Ətraflı məlumat əldə etmək üçün Penitensiar xidmətin Kadrlar idarəsi ilə əlaqə saxlamaq olar. (012) 493-44-89, (012) 498-71-06, (077) 235 00 44.

# İmişli Rayon Məhkəməsinin yeni müasir inzibati binası istifadəyə verilib






**Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına əsasən ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə aparılan islahatlar nəticəsində məhkəmə sistemi təkmilləşdirilib, yeni məhkəmələr təsis olunub, hakimlərin Avropada ən şəffaf seçim qaydaları müəyyən edilib, məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun infrastrukturunun müasirləşdirilməsi üzrə xeyli işlər görülüb.**

Bununla bağlı dövlət büdcəsi hesabına, habelə Dünya Bankı ilə birgə həyata keçirilən layihələr çərçivəsində paytaxtda və bölgələrdə 11 məhkəmə üçün yeni, müasir binalar və komplekslər tikilərək istifadəyə verilib, hazırda isə 8 məhkəmə üçün bina və komplekslərin intensiv inşası aparılır.

Ölkə başçısının Bakı şəhəri Yasamal, Sabunçu, habelə Şəki və Oğuz rayon məhkəmələri üçün yeni bina və komplekslərin açılışlarını şəxsən həyata keçirməsi məhkəmə hakimiyyətinə verdiyi böyük önəmin bariz nümunəsidir.

Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq martın 29-da İmişli rayonunda dövlət büdcəsi hesabına müasir tələblərə uyğun inşa olunmuş yeni məhkəmə binasının açılışı olub.

Mərasimdən əvvəl ümummilli lider Heydər Əliyevin İmişli rayonunda abidəsi ziyarət olunaraq, xatirəsi dərin ehtiramla yad edilib.

Tədbirdə ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev, Milli Məclisin deputatı, Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə, bölgənin hakimləri, ədliyyə, prokurorluq, digər hüquq-mühafizə orqanlarının işçiləri, ictimaiyyət və KİV nümayəndələri iştirak ediblər.

Bina ilə tanışlıq zamanı bildirilib ki, ümumi sahəsi 2.300 m2, iki mərtəbədən və zirzəmi qatından ibarət olan məhkəmə binası, digər yeni tikilmiş məhkəmə binalarında olduğu kimi, ictimai və inzibati zonalara bölünməklə müasir İKT-lə təchiz olunub, bu zaman ölkə Prezidentinin tapşırığına uyğun olaraq elektron məhkəmə sisteminin tətbiqi ilə bağlı zəruri infrastruktur yaradılıb, o cümlədən videokonfransların, elektron sənəd dövriyyəsi və məhkəmə işlərinin idarə olunmasına xidmət edən və audio-video yazılışları aparan "Femida" sistemi və digər avadanlıqlar quraşdırılıb. Burada həmçinin, konfrans və iclas zalları, təlim otağı, kitabxana,



arxiv, təqsirləndirilən şəxslərin saxlanması üçün kameralar, konvoy maşını üçün dayanacaq və digər sahələr mövcuddur.

BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyasına uyğun olaraq İmişli Rayon Məhkəməsinin binasında əlillərin sərbəst hərəkəti üçün də bütün şərait yaradılıb.

Mərasimdə çıxış edən ədliyyə naziri ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasına uyğun olaraq dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın sosial-iqtisadi tərəqqisinin təmin olunduğunu vurğulayıb, ədliyyə və məhkəmə sahəsində aparılan islahatlar və yeniliklər barədə məlumat verib.

Ölkə Prezidentinin ötən ay imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamının müstəsna əhəmiyyəti qeyd olunaraq məhkəmələrin üzərinə bununla bağlı mühüm vəzifələrin düşdüyü bildirilib, insan haqlarının, xüsusilə azadlıq hüququnun qorunmasında hakimlərin yüksək məsuliyyəti diqqətə çatdırılaraq, bu mənada həbs qətimkan tədbirinin seçilməsinə həssas yanaşılmanın vacibliyi vurğulanıb. Eyni zamanda, məhkəmə fəaliyyətində şəffaflığın artırılması, qərarların ədalətliliyinin təmin edilməsi, vətəndaşlara layiqli xidmət göstərilməsi, qərəzli yanaşmanın, korrupsiyanın yolverilməzliyi qeyd edilib.

Nazir İmişli Rayon Məhkəməsinin müasir inzibati binasının istifadəyə verilməsinin məhkəmə sistemində aparılan islahatlara əlavə töhfə olmaqla məhkəmənin fəaliyyətinin yüksək səviyyədə təmin olunmasına, vətəndaşların müraciət imkanlarının asanlaşdırılmasına və insan hüquqlarının etibarlı təminatına xidmət edəcəyini bildirib.

Mərasimdə çıxış edən İmişli rayon icra başçısı V.Hacıyev, millət vəkili Ç.Qənizadə və hakimlər regionların hərtərəfli tərəqqisinə, xüsusilə ədalət mühakiməsinin səmərəliliyinə və məhkəmə sisteminin inkişafına göstərdiyi xüsusi qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

# Ədliyyə naziri Beyləqan rayonunda vətəndaşları qəbul edib

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**



Martın 29-da ədliyyə naziri Fikrət Məmmədov Beyləqan rayonu Heydər Əliyev Mərkəzində Beyləqan, İmişli, Füzuli və Xocavənd rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir və Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Abdullayev ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə qəbulda iştirak edən nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin yerindəcə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Səfər zamanı ədliyyə naziri yerli məhkəmə və ədliyyə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, hakimlər və ədliyyə işçiləri ilə müşavirə keçirib.

Nazir respublikamızın, o cümlədən regionların sosial-iqtisadi inkişafı üzrə həyata keçirilən məqsədyönlü tədbirlərdən danışıb, ədliyyə və məhkəmə islahatlarına toxunaraq bölgəyə səfər zamanı İmişlidə rayon məhkəməsinin yeni müasir binasının istifadəyə verildiyini söyləyib.

Müşavirədə ölkə Prezidentinin ötən ay imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamının müstəsna əhəmiyyəti vurğulanıb, vətəndaşların azadlıq hüququnun qorunmasına xidmət edən azadlıqdan məhrumetməyə alternativ qətimkan tədbirlərinin və cəzaların tətbiqinin genişləndirilməsi, habelə şəffaflığın, məhkəmə qərarlarının ədalətliliyinin təmin olunmasının vacibliyi, eləcə də qərəzli yanaşmanın, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi qeyd olunaraq aidiyyəti tövsiyə və tapşırıqlar verilib.

Eyni zamanda, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, rüşvətxorluğa, qanunsuz tələblərə və digər neqativ hallara son qoyulması, hər bir məmurun təvazökar olması ilə bağlı dövlət başçısının tələbləri diqqətə çatdırılaraq etik davranış qaydalarına dönmədən əməl olunması, vətəndaşlara daha həssas və qayğı ilə yanaşılması vurğulanıb.

# 8 mart - Qadınlar günü ədliyyə orqanlarında qeyd olunub

**Ədliyyə Nazirliyində 8 mart - Qadınlar günü münasibətilə tədbir keçirilib.**



Tədbirdə çıxış edən ədliyyə nazirinin müavini Toğrul Musayev əlamətdar gün münasibətilə nazirliyin rəhbərliyi adından qadın əməkdaşları təbrik edib, ölkənin ictimai-siyasi həyatında qadınların rolundan bəhs edib.

Bildirilib ki, ulu öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət qadın siyasəti bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilərək, hüquqi dövlət quruculuğunda və ictimai həyatda qadınların fəal iştirakına, onların dövlət idarəçiliyində geniş təmsil olunmasına hər cür şərait yaradılıb. Böyük məmnuniyyətlə qeyd olunub ki, respublikamızın hərtərəfli tərəqqisində çoxşaxəli səmərəli xidmətləri ilə cəmiyyətimizdə və beynəlxalq aləmdə yüksək nüfuz qazanmış Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın bu yaxınlarda ölkəmizdə ilk dəfə təsis edilmiş Birinci vitse-prezident vəzifəsinə təyin olunması Azərbaycan qadınının cəmiyyətdə tutduğu yüksək statusunun təzahürüdür.

Nazir müavini ədliyyə orqanlarında qadınların səmərəli fəaliyyət göstərdiklərini və Azərbaycan ədliyyəsinin inkişafında dəyərli töhfələrini vurğulayıb, onlara cansağlığı, ailə səadəti və işlərində müvəffəqiyyətlər arzulayıb.

Bayram münasibətilə kollektivin qadın əməkdaşlarına hədiyyələr təqdim olunub.

Qadınlar günü nazirliyin struktur qurumlarında da qeyd edilib.

# Ədliyyə Nazirliyində görüş





**Martın 15-də ədliyyə nazirinin müavini Azər Cəfərov Azərbaycanın Avropa Şurasına (AŞ) üzv qəbul olunduqdan sonra üzərinə götürdüyü öhdəliklərin icrası vəziyyətini öyrənmək məqsədilə ölkəmizdə səfərdə olan AŞ Siyasi Məsələlər Direktorluğunun rəhbəri Aleksandr Qesselin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Azərbaycan və AŞ arasında səmərəli əməkdaşlığı qeyd edən nazir müavini öhdəliklərin icrası üzrə görülmüş işlərdən danışaraq ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sistemində aparılan islahatlar, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi, Məhkəmə-Hüquq Şurasının yaradılması, son illər Şuranın səlahiyyətlərinin hakimlərin və məhkəmə sisteminin müstəqilliyinin möhkəmləndirilməsi baxımından xeyli genişləndirilməsi, hakimlərin və məhkəmə aparatı işçilərinin sayının artırılması, hakimlərin seçimində tətbiq olunan qaydaların AŞ tərəfindən örnək kimi qiymətləndirilməsi, habelə onların tədrisi, bu zaman İnsan Hüquqları üzrə Avropa Məhkəməsi ilə əməkdaşlıq barədə məlumat verib.

Nazir müavini dövlətimizin başçısının ötən ay imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamının müstəsna əhəmiyyətini qeyd edib. Bildirilib ki, bu mühüm sənədin icrası üzrə artıq müəyyən addımlar atılıb, Probasiya xidmətinin yaradılması, elektron nəzarət vasitələrinin tətbiqinə dair beynəlxalq təcrübə, o cümlədən xarici ölkələrdə yerində öyrənilməklə təkliflər hazırlanıb, aidiyyəti qurumlarla birgə yaradılmış işçi qrup tərəfindən cinayət qanunvericiliyinin liberallaşdırılması, bir sıra cinayətlərin dekriminallaşdırılması və s. məqsədilə yeni qanun layihələri hazırlanır.

Azərbaycanın Avropa Şurası üçün böyük əhəmiyyət kəsb etdiyini söyləyən qonaq ölkəmizdə hər gün yeni inkişafın, müxtəlif sahələrdə real dəyişikliklərin baş verdiyini vurğulayıb, son illərdə, həmçinin məhkəmə-hüquq sistemində əldə olunmuş nailiyyətlərdən məmnunluğunu ifadə edib.

A.Qessel Azərbaycan Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamının icrası üzrə görülən işləri, o cümlədən azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan qətimkan tədbirlərinin və alternativ cəzaların tətbiqinin genişləndirilməsini maraqla qarşılayaraq bu mühüm sənədin imzalanmasının Avropa Şurasının rəhbərliyi tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. Bildirib ki, Sərəncamın icrası cəza siyasətinin humanistləşdirilməsi, yeni institut və mexanizmlərin tətbiqi sahəsində böyük islahatlara yol açacaq və gələcəkdə bir çox üzv-dövlətlər bu təcrübədən faydalana bilər. O, bu islahatların həyata keçirilməsində Ədliyyə Nazirliyinin vacib rol oynadığını söyləyərək Avropa Şurasının bu sahədə dəstək göstərməyə hazır olduğunu vurğulayıb.

Görüşdə həmçinin, qanunvericiliyin təkmilləşdirilməsi, vətəndaş cəmiyyətinin inkişafı və digər maraq doğuran məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb.

Tədbirdə ölkəmizin AŞ yanındakı daimi nümayəndəsi Emin Eyyubov iştirak edib.

# 31 mart - azərbaycanlıların soyqırımı qurbanlarının xatirəsi yad edilib

**Təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı həyata keçirdiyi 31 mart - azərbaycanlıların soyqırımı bəşər tarixinin ən qanlı səhifələrindən biridir.**

Bu dəhşətli faciəyə yalnız müstəqillik dövründə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra siyasi-hüquqi qiymət verilib, Ulu Öndərin 1998-ci ildə imzaladığı Fərmanla martın 31-i Azərbaycanlıların Soyqırımı Günü elan olunaraq hər il soyqırım qurbanlarının xatirəsi ölkəmizdə və onun hüdudlarından kənarda anılır.

Xalqımızın qan yaddaşında əbədi yaşayan bu hadisələrin ildönümü ilə əlaqədar ədliyyə orqanlarında anma mərasimləri keçirilərək erməni vəhşiliklərinin və cinayətlərinin tarixinə nəzər salınıb, soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilib. 1918-ci ilin mart-aprel aylarında erməni quldur dəstələrinin Azərbaycan xalqına qarşı törətdikləri kütləvi qırğın zamanı on minlərlə dinc, silahsız soydaşımızın, o cümlədən uşaqlar, qadınlar və qocaların etnik mənsubiyyətlərinə görə amansızcasına qətlə yetirilməsi, öz doğma torpaqlarından didərgin salınması, onlarla şəhər və kəndin yandırılaraq yerlə-yeksan olunması, milli-mədəni abidələrin, tikililərin dağıdılaraq məhv edilməsi qeyd olunub. Vaxtilə həmin dövrdə yaradılmış Fövqəladə İstintaq Komissiyası tərəfindən soyqırımın araşdırılması ilə bağlı görülən işlərin, toplanılmış istintaq materiallarının tarixi həqiqətlərin aşkara çıxarılmasında böyük rol oynadığı vurğulanıb.




Anma mərasimlərində möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bu qətliamın və azərbaycanlılara qarşı ermənilər tərəfindən tarix boyu aparılan etnik təmizləmə siyasətinin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü addımların atıldığı, Qubada aşkar olunmuş kütləvi məzarlığın yerləşdiyi ərazidə yaradılmış "Soyqırımı Memorial Kompleksi"nin ermənilərin təcavüzkar siyasətinin və soyqırımı hadisələrinin ifşa olunmasına, faciə qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə xidmət etdiyi vurğulanıb. Bu kütləvi qırğının öz miqyasına və qəddarlığına görə bəşəriyyət və insanlıq əleyhinə ən dəhşətli cinayətlərdən olduğu bildirilərək soyqırımı həyata keçirənlərin layiqli cəzalarını alacaqlarına əminlik ifadə olunub.

Nazirlikdə, həmçinin azərbaycanlıların soyqırımı ilə bağlı kinozalda filmlər, elektron məlumat lövhəsində sənədlərdən və foto materiallardan ibarət foto-slaydlar nümayiş etdirilib.





# Azərbaycan Xalq Cümhuriyyəti dövründə Mart soyqırımının araşdırılmasında Fövqəladə İstintaq Komissiyasının tarixi xidmətləri

**İki yüz ilə yaxın bir müddətdə təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı həyata keçirdiyi soyqırımı siyasətinin ən qanlı səhifələrindən biri 1918-ci ilin mart-aprel aylarında törədilmiş azərbaycanlıların soyqırımıdır. Bu dəhşətli faciə ilə bağlı uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş tarixi faktlar ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra açılmış, xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir.**

Ümummilli lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanı ilə 1918-ci ildə erməni daşnak və bolşevik dəstələri tərəfindən bütöv bir xalqın kökünün kəsilməsi məqsədilə törədilmiş azərbaycanlıların soyqırımına tarixi qiymət verilmişdir. Vaxtilə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin yaratdığı Fövqəladə İstintaq Komissiyasının (FİK) mart soyqırımının araşdırılması ilə bağlı böyük iş görərək topladığı istintaq materialları tarixi həqiqətlərin aşkara çıxarılmasında böyük rol oynamışdır.

Sovet hakimiyyəti dövründə Komissiyanın topladığı materiallar, əlbəttə ki, dövlət arxivlərinin gizli fondlarında saxlanırdı. Respublikamızın müstəqillik əldə etməsindən sonra bu fondlar tədqiqatçıların üzünə açılmış və nəticədə gec də olsa, xalqımız 1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində erməni millətçilərinin və böyük əksəriyyəti yenə də erməni əsgərləri olan bolşevik hərbi hissələrinin xüsusi qəddarlıqlarla törətdikləri cinayətkar əməllərdən xəbərdar olmuşdur.

Bu gün arxiv materiallarından aydın olur ki, hələ 1918-ci ildə yenicə fəaliyyətə başlayan gənc cümhuriyyət hökumətinin ilk addımlarından biri bu hadisələri araşdırmaq, onlara hüquqi qiymət vermək, dünyanı məlumatlandırmaq məqsədi ilə istintaq komissiyasını yaratmaq olmuşdur. Təsadüfi deyil ki, 31 mart tarixi iki dəfə - 1919 və 1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir.


Азербайджанская Республика
Министерство Иностранныхъ Дѣлъ.
„28" Октября 1918 г.
№ 656.
г. Баку.

Въ Канцелярію Министерства Юстиціи

Согласно резолюціи Его Высокопревосходительства Господина Предсѣдателя Совѣта Министровъ, Канцелярія Министерства Иностранныхъ Дѣлъ препровождаетъ отношеніе г. Предсѣдателя Чрезвычайной Слѣдственной Комиссіи при Правительствѣ Азербайджанской Республики на распоряженіе Его Высокопревосходительства Г. Министра Юстиціи.-

И.Об. Секретаря

За И.Об. Дѣлопроизводителя

*Fövqəladə İstintaq Komissiyasının Xarici İşlər Nazirliyindən Ədliyyə Nazirliyinin sərəncamına verilməsi, 28 oktyabr 1918-ci il*

Bir tərəfdən dövlətçiliyin təşkili işinin aparılması ilə hakimiyyət strukturlarının fəaliyyətinin tənzimlənməsinin, digər tərəfdən də cinayətkar və antimilli qüvvələrlə sərt mübarizə aparmağın zəruri olduğu bir dövrdə -.1918-ci ilin iyulun 15-də Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının iclasında Fövqəladə İstintaq Komissiyasının yaradılması ilə bağlı qərar qəbul edilmişdir.

Xarici İşlər Nazirliyinin nəzdində yaradılmış Fövqəladə İstintaq Komissiyasının sədri vəzifəsinə ədliyyə naziri Xəlil bəy Xasməmmədovun qardaşı, Moskva Dövlət Universitetinin hüquq fakültəsini bitirmiş, öz dövrü üçün çox nadir peşəkar hüquqşünas olan Ələkbər bəy Xasməmmədov təyin olunmuşdur.

Komissiyanın digər üzvləri də əsasən peşəkar



Mart soyqırımının nəticələri

hüquqşünaslar, ictimai xadimlər idi. Onun əvvəl cəmi 7 üzvü olsa da, sonradan sayı artırılmışdır. İ.Şahmalıyev, A.F.Novatski, N.M.Mixaylov, A.E.Kluqe, M.Təkinski, V.V.Qudvil, A.Aleksandroviç Komissiyanın daha fəal üzvlərindən olmuşlar.

1918-ci il oktyabrın 9-da Fövqəladə İstintaq Komissiyası Xarici İşlər Nazirliyindən Ədliyyə Nazirliyinin sərəncamına verilmişdir. Bu dövrdə Ədliyyə Nazirliyi məhdud kadr potensialı ilə gənc dövlətin ədliyyə sisteminin formalaşdırılması istiqamətində fəal iş görməyə, ilk gündən ölkədə anarxiya zamanı dağıdılmış məhkəmə aparatı sistemini, birinci növbədə Bakı və Gəncə dairə məhkəmələrinin və onların yanındakı prokuror nəzarətinin, habelə yerlərdə barışıq məhkəmələrinin fəaliyyətini bərpa etməyə başlamışdı.

İstintaq Komissiyası ilk gündən böyük çətinliklərlə üzləşmişdi. Əvvəla yerlərdə kifayət qədər müstəntiqlər, tədqiqatçılar yox idi. Digər tərəfdən də araşdırma apararkən, səlahiyyətlərlə bağlı bir sıra məhdudiyyətlər var idi. Bu problemi aradan qaldırmaq üçün Ədliyyə Nazirliyi 1919-cu ilin əvvəlində hökumətə müraciət edərək Komissiyanın səlahiyyətlərinin artırılmasını xahiş etmiş, müraciət cavabsız qalmamış və 1919-cu ilin mart ayının 21-də FİK-in məhkəmə-istintaq hakimiyyətinin bütün hüquqlarına malik olması barədə sərəncam verilmişdi.



Mart soyqırımının nəticələrini araşdıran Fövqəladə İstintaq Komissiyasının materialları

Fəaliyyəti dövründə Komissiya üzvləri çox çətin şəraitdə böyük fədakarlıqla işləyirdilər. Demək olar ki, onlar nəqliyyat çətinliyini nəzərə almadan, çox vaxt da piyada kəndbəkənd gəzir, hətta pis havada belə açıq səma altında və quru döşəmənin üstündə gecələməli olurdular. Hər yerdə bütün zərərçəkənlər və şahidlər dindirilir, obyektivlik naminə yalnız



AZƏRBAYCANLILARIN SOYQIRIMI HAQQINDA
AZƏRBAYCAN RESPUBLIKASI PREZIDENTININ
FƏRMANI

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil

...ının himayəsi ...ılan inzibati ... ş verən bütün ...yiət olunaraq, ...nülmüş, planlı ...ətinin ayrı-ayrı ...sələrin yalnız ...qiymət verməl ...can Xalq ... Respublikası ...çirə bilmədiyi ...ıq soyqırım ...ərcunu tarixin ... dilmiş bütün ...edi ilə qərara

1. 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilsin.

2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın.

Heydər ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 mart 1998-ci il

azərbaycanlılar deyil, mümkün qədər qeyri millətlərdən də ifadələr alınırdı. Komissiya, həmçinin dağıdılmış binalara baxış keçirərək, fotoşəkillər çəkir və aktlar tərtib edirdi.

Bir cəhəti xüsusilə qeyd etmək lazımdır ki, komissiya üzvlərinin əksəriyyəti qeyri-azərbaycanlılar - ruslar, yəhudilər və digər millətlərin nümayəndələri idi. Əslində bu cəhət soyqırımı kimi ağrılı hadisənin obyektiv araşdırılmasında mühüm rol oynamışdı. Qeyri-azərbaycanlı komissiya üzvləri milli və subyektiv faktorların təsirindən kənar qala bilərdilər. Lakin hətta onlar belə erməni vəhşiliyindən o qədər dəhşətə gəlmişdilər ki, öz hesabatlarında fikirlərini bəzən rəsmi-işgüzar üslubdan kənara çıxmaqla ifadə edirdilər.

Şahidlərin və hadisələri bilavasitə yaşayanların ifadələrinə əsaslanaraq müəyyən edilmişdir ki, ermənilər Cənubi Qafqazın müsəlman əhalisinin sistemli şəkildə qırılması və onların ərazilərinin ələ keçirilməsi ilə bağlı bütöv bir plan hazırlamışdılar. Ermənilər azərbaycanlıları çox vaxt qeyri-adi, inanılmaz qəddarlıqla qətlə yetirirdilər: onların canlı-canlı dərisini soyur, divara mismarlayır, süngü ilə gözlərini oyur, qulaqlarını kəsir, ağaclardan asırdılar. Hətta təhqiqatı aparan təcrübəli hüquqşünaslar belə erməni cəlladlarının dəhşətli cinayətlərindən sarsılmışdılar. Komissiyanın işinə cəlb olunmuş fotoqraf Vladimir Sokolov divara mismarlanmış ikiyaşlı uşağı və digər kiçik uşaqları çəkərkən, bu vəhşiliyin ağırlığına dözməmiş, bundan sonra o, erməni cinayətlərinin izlərini çəkməyə davam etməkdən imtina etmişdi.

Böyük çətinliklər bahasına olsa da, artıq 1919-cu ilin mayın sonunda Komissiya demək olar ki, işinin istintaq hissəsini yekunlaşdıra bilmişdi. Onun toplaya bildiyi materialların ümumi həcmi 36 cild, 3500 vərəq idi. Tarixçi alim S.Rüstəmova-Tohidi böyük əmək sərf edərək arxivlərdən FİK-in materiallarını toplamış və nəşr etdirmişdir.

Komissiyanın materiallarından məlum olur ki, 1918-ci ilin 30 mart-2 aprel tarixlərində Bakıda 12 mindən çox insan qətlə yetirilmişdir Mart, aprel və may aylarında davam edən soyqırımı zamanı Quba şəhəri ilə birlikdə qəzanın 167 kəndi ziyan çəkmiş və burada soyqırımı qurbanlarının sayı 6 min nəfəri ötmüşdü. Bakı quberniyasının soyqırımından ən çox ziyan çəkən Şamaxı qəzasının 110 kəndi və Şamaxı şəhərinin özündə öldürülənlərin sayı isə 22 min 300-ə yaxın idi. Zəngəzur qəzasının isə 115 kəndində 8 min 200 nəfərdən çox müsəlman məhv edilmişdi ki, onların da 2.196 nəfəri uşaq idi.

Gərgin və məhsuldar fəaliyyətdən sonra 1919-cu ilin noyabrın 1-də Fövqəladə İstintaq Komissiyası ləğv edilmiş, onun tərtib etdiyi istintaq işi isə Azərbaycan Məhkəmə Palatasının Prokuroruna verilmişdi. Toplanmış materiallar həm hüquqi nöqteyi-nəzərdən, həm də çox mühüm tarixi siyasi və diplomatik əhəmiyyət daşıyırdı. İstintaq zamanı adları müəyyən edilmiş bir çox cinayətkarlar məsuliyyətə cəlb edə bilərdi. Materiallar əsasında 128 hesabat məruzəsi hazırlanmış, 194 nəfərin cinayət məsuliyyətinə cəlb edilməsi haqqında məsələ qaldırılmışdı. Bunların sırasında S.Lalayan, Amazasp, T.Əmiryan və onlarla başqa erməni quldurları var idi. Qeyd etmək lazımdır ki, həmin cinayətkarların həbsləri də həyata keçirilməyə başlamışdı. Hətta demokratik respublika şəraitində hələ də Bakıda mövcud olan Erməni Milli Şurası heç nədən çəkinməyərək həmin canilərin




*Quba kütləvi məzarlığının yerləşdiyi ərazidə yaradılmış Soyqırımı Memorial Kompleksi*

müdafiəsinə qalxmışdı.

Təxminən 20 ay fəaliyyət göstərən Fövqəladə İstintaq Komissiyası böyük çətinliklərlə qarşılaşsa da, ermənilərin xalqımızın başına açdığı müsibətlər haqqında çoxlu faktiki materiallar toplamağa müvəffəq olmuş və bu gün bizə xalqımızın tarixindəki bu qaranlıq səhifələrini yenidən işıqlandırmaq üçün böyük köməkliklər göstərmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi işlərin məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermiş, ulu öndər Heydər Əliyevin imzaladığı 1998-ci il tarixli Fərmanla 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

Hazırda vaxtilə Azərbaycan Xalq Cümhuriyyəti Fövqəladə İstintaq Komissiyasının öz qarşısına qoyduğu vəzifənin davamı olaraq Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımı hadisələri ətraflı tədqiq edilir. Ölkə Prezidenti cənab İlham Əliyevin "hücum diplomatiyası" xəttini elan etməsindən sonra azərbaycanlılara qarşı törədilən soyqırımlar haqqında tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Azərbaycan dövləti, eləcə də Heydər Əliyev Fondu tərəfindən ardıcıl və məqsədyönlü işlər görülür.

Qubada aşkar edilmiş kütləvi insan məzarlığı erməni terrorçularının xalqımıza qarşı törətdikləri qanlı faciənin bariz nümunəsidir. Bununla əlaqədar dövlət başçısının 30 dekabr 2009-cu il tarixli Sərəncamına əsasən Quba kütləvi məzarlığının yerləşdiyi ərazidə yaradılmış Soyqırımı Memorial Kompleksi ermənilərin qanlı izlərini, onların əsl simasını, vəhşiliklərini tanıtmaq, günahsız insanların tarixi faciəsini əbədiləşdirmək baxımından çox böyük tarixi məna daşıyır.

**Pərvanə ƏLİYEVA,**
**Ədliyyə Nazirliyi Qanunvericilik baş idarəsinin Hüquqi aktların dövlət reyestri şöbəsinin məsləhətçisi**
**II dərəcəli ədliyyə qulluqçusu**

**ƏDƏBİYYAT:**

1. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanı // "Azərbaycan" qəzeti, 27 mart 1998-ci il
2. Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001
3. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. I cild, Bakı, 2005
4. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. II cild, Bakı, 2005
5. Рустамова-Тогиди.С. Баку. Март 1918 г. Азербайджанские погромы в документах. Баку, 2009
6. Рустамова-Тогиди С. Шемаха. Март-июль 1918 г. Азербайджанские погромы в документах. Том I, Город Шемаха. Баку, 2013
7. Рустамова-Тогиди С. Шемаха. Март-июль 1918 г. Азербайджанские погромы в документах. Том II, Селения Шемахинского уезда. Баку, 2013

# Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı növbəti açıq müsabiqə elan edilir

**Ədliyyə Nazirliyinin kadr korpusunun şəffaf üsullarla yüksək hazırlıqlı və zəruri peşə keyfiyyətlərinə malik yeni nəsil gənc mütəxəssislərlə komplektləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür.**

Hazırda Müsabiqə Komissiyası tərəfindən Azərbaycan Respublikası Prezidentinin 13 dekabr 2007-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"yə müvafiq olaraq növbəti açıq müsabiqə elan edilir.

Müsabiqə üzrə vakant vəzifələr əsasən rayon (şəhər) icra və qeydiyyat qurumlarındadır.

"Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunun 4-cü maddəsində nəzərdə tutulmuş tələblərə cavab verən ali hüquq təhsilli Azərbaycan Respublikası vətəndaşları müsabiqəyə dəvət olunur.

Müsabiqənin birinci mərhələsində - test imtahanında iştirak üçün namizədin Nazirliyə müvafiq elektron ərizə ünvanlaması kifayətdir. Ərizələr poçt vasitəsilə də göndərilə bilər.

Arzu edənlər 2017-ci ilin mart ayının 10-dan etibarən Nazirliyin internet səhifəsində (www.justice.gov.az) "Qulluğa qəbul" bölməsinə daxil olmaqla şəxsiyyət vəsiqəsi əsasında elektron ərizə formasını doldurmalı və təsdiq etməlidirlər. Bu zaman qeydiyyata alınmış bütün namizədlərin fərdi elektron kabinetləri yaranır və onlar müraciətlərinin qəbulu ilə bağlı məlumatlandırılır. Namizəd müsabiqənin gedişi və nəticələri barədə məlumatları kütləvi informasiya vasitələri ilə yanaşı, elektron kabinetindən də əldə edir.




Test imtahanından uğur qazanmış namizədlərin digər zəruri sənədlərinin toplanması və yoxlanılması bu mərhələdən sonra həyata keçiriləcək və qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verən şəxslər ikinci mərhələyə - söhbətə buraxılacaqlar.

İmtahana hazırlıqla bağlı "Yaddaş kitabçası" Nazirliyin internet səhifəsində "Qulluğa qəbul" bölməsində və namizədlərin elektron kabinetlərində yerləşdiriləcək, habelə bu sənədlər yerli ədliyyə qurumlarına müraciət edənlərə təqdim olunacaqdır.

Bildirilir ki, builki müsabiqədə iştirak edən hüquqşünaslar üçün də test imtahanına və söhbət mərhələsinə mükəmməl hazırlaşmalarına və yüksək nəticələr əldə etmələrinə köməklik məqsədilə Nazirliyin Ədliyyə Akademiyasında hazırlıq kursu təşkil ediləcəkdir.

Test imtahanının vaxtı və yeri, habelə hazırlıq kursunun keçirilməsi barədə əlavə məlumat veriləcəkdir.

Nazirliyin internet səhifəsindən, eləcə də (012) 538-01-62, 537-05-90 nömrəli telefonlar vasitəsilə bütün suallarla bağlı operativ informasiya almaq olar.

# Ədliyyə Akademiyasının məlumatları

Ədliyyə Akademiyası tərəfindən AŞ/Aİ Şərq Tərəfdaşlığı proqramının "Azərbaycanda məhkəmələrin səmərəliliyinin artırılmasına, hakimlərin təliminin təkmilləşdirilməsinə və məhkəmələrdə özünüidarəetməyə dəstək" layihəsi çərçivəsində cari ilin martında "Müasir statistik təhlil alətlərinin tətbiqi və təqdimat bacarıqlarının inkişaf etdirilməsi", "Dərsliklərin yazılması bacarıqlarının artırılması" mövzularında təlimlər və Hakimlər üçün təlimin təkmilləşdirilməsi ilə əlaqədar nəticələrin təqdim edilməsinə dair dəyirmi masa keçirilib.

Birinci instansiya məhkəməsi hakimlərinin, Ədliyyə Nazirliyi, Məhkəmə-Hüquq Şurası, Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və ASAN Xidmətin nümayəndələrinin iştirak etdikləri tədbirlərdə Avropa Şurasının ekspertlərinin təqdimatları dinlənilib.



Təlimlər zamanı təhlilin məqsədləri və alətləri, statistik göstəricilər və keyfiyyət üzrə təhlillər, SPSS təhlil platforması, təqdimatın məqsədi və növləri, natiqlik və səlis nitq bacarıqları, verbal və qeyri-verbal kommunikasiya kanalları, habelə dərsliklərin həm ümumi, həm də xüsusi olaraq gələcək hakimlərin və prokurorların ilkin təlimi ilə bağlı anlayışının təqdim edilməsi, dərsliklərin yazılması ilə bağlı yanaşmalar barədə mövzular tədris olunub, bir və ya bir neçə dərsliyin strukturu və məzmununun hazırlanmasına dair praktiki məşğələ keçirilib.

Dəyirmi masada isə təlimlərin təşkilində və keçirilməsində keyfiyyət meyarları, təlim prosesinin idarə edilməsinə dair konsepsiya sənədi, böyüklərin təhsili metodologiyası, hakimlər üçün təlim proqramına dair hesabat, Ədliyyə Akademiyasının fəaliyyətinin təkmilləşdirilməsi məsələləri diqqətə çatdırılıb.

Layihə çərçivəsində Şirvan regional ədliyyə idarəsində "Pulsuz hüquqi yardımın təşkili və müasir hüquqi maarifləndirmə alətlərinin tətbiqi" mövzusunda təlim təşkil edilib. Bütün regional qurumların, o cümlədən video-konfrans vasitəsilə nümayəndələrinin cəlb olunduğu təlimdə regional ədliyyə idarələrinin ədliyyə sahəsində aparılan islahatlarda rolu, Azərbaycanda pulsuz hüquqi yardımın təşkili, bu sahədə Avropa ölkələrinin təcrübəsi, müasir hüquqi maarifləndirmə alətlərinin tətbiqi, Ədliyyə Akademiyası hüquq klinikasının fəaliyyəti kimi məsələlər müzakirə edilib.





Martın 1-də Ədliyyə Akademiyası tərəfindən Bakı şəhəri Yasamal və Gəncə şəhəri Nizami rayon məhkəmələri arasında video-konfrans vasitəsilə məhkəmə aparatı işçiləri üçün "Məhkəmələrdə idarəetmənin səmərəliliyinin artırılması" mövzusunda distant formada ixtisasartırma kursu keçirilib.

Bakı şəhər və rayon, Gəncə apellyasiya və onun yurisdiksiyasına aid olan rayon, şəhər məhkəmələrindən 55-dək məhkəmə aparatı işçilərinin cəlb olunduğu kursda "Məhkəmələrin fəaliyyətinin səmərəliliyi və onun əldə edilməsi üsulları", "Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ). CEPEJ alətlərinin və standartlarının anlayışı və onların məhkəmələrin effektiv idarə edilməsində rolu" və "Məhkəmələrin və məhkəmə vaxtının idarə edilməsi sahəsində əsas CEPEJ alətləri, bu sahədə aparat işçilərinin rolu" kimi aktual mövzularla bağlı mühazirələr dinlənilib.

Ədliyyə Akademiyası Avropa Şurasının Azərbaycan üçün 2014-2016-cı illər üzrə Fəaliyyət Planının bir hissəsi olan "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi" adlı layihəsi çərçivəsində martın 16-17-də Şirvan şəhərində vəkillər üçün iki günlük təlim keçirib.

Avropa İnsan Hüquqları Konvensiyasının 1 saylı Protokolunun 1-ci maddəsi (Mülkiyyətin müdafiəsi) mövzusuna həsr olunmuş təlimə Vəkillər Kollegiyasının Şirvan şəhəri və ətraf regionlardan 27 üzvü cəlb edilib, qeyd olunan mövzu ilə bağlı mühazirələr oxunub.





Cari ilin mart ayında Ədliyyə Akademiyası tərəfindən icra məmurları üçün ixtisasartırma kursları təşkil edilib. Akademiyada, nazirliyin Qeydiyyat və notariat baş idarəsində, habelə Vergilər Nazirliyi ilə vergi hüququnun vacib təcrübi məsələlərinin öyrənilməsi ilə bağlı əldə olunmuş razılığa əsasən keçirilmiş kurslara ümumilikdə 50-dən çox icra məmuru cəlb olunub.

Kurslarda açıq hökumətin təşviqi, elektron informasiya sistemləri, elektron sənəd dövriyyəsi, elektron hökumətin və xidmətlərin mahiyyəti və s. mövzular tədris olunub.

Bununla yanaşı, icra işinin təkmilləşdirilməsi, əmlakın siyahıya alınması və ya üzərinə həbs qoyulması zamanı icra məmurları tərəfindən aparılan sənədləşmənin keyfiyyəti, məhkəmələrin müəyyən olunmuş fəaliyyət qaydasının təmin edilməsi, icra sənədi üzrə işdə iştirak edən şəxslərə münasibətdə icra məmurunun hüquq və vəzifələri, icra qanunvericiliyindəki yeniliklər, icra məmurları tərəfindən yol verilən xarakterik nöqsanlar və onların aradan qaldırılması üzrə görülən tədbirlər, probasiya, Avropa İnsan Hüquqları Məhkəməsinin məhkəmə qərarlarının icrası məsələsinə Avropa Konvensiyası baxımından münasibəti mövzularında mühazirələr deyilib.

Qeyd olunan mövzular, həmçinin "Vergi borclarının alınması ilə bağlı məhkəmə qərarlarının icrası, bu sahədə qanunverilijiliyə edilmiş dəyişikliklər," "Vergi üzrə borcların alınması. Vergi ödəyicilərinin əmlakı hesabına vergilərin tutulması" mövzuları Vergilər Nazirliyi ilə birgə keçirilmiş kursda da tədris olunub.

Ədliyyə Akademiyası Şirvan regional ədliyyə idarəsi ilə birgə martın 10-da Şirvan şəhərində Şirvan, Sabirabad, Hacıqabul, Şamaxı, Neftçala və Salyan rayonlarının bələdiyyə üzvləri və qulluqçularının hüquqi maarifləndirilməsi məqsədilə də tədris kursu təşkil edib.

70-dək bələdiyyə nümayəndələrinin iştirak etdiyi kursda bələdiyyə qulluğuna qəbul, bələdiyyə qulluqçularının etik davranış qaydaları, "Vətəndaşların müraciətləri haqqında" Qanun, bələdiyyələrdə kargüzarlığın təşkili, şəffaflığın artırılması və korrupsiya hüquqpozmalarının qarşısını alınması, yerli vergi və ödənişlərin yığılmasında bələdiyyələrin hüquq və vəzifələri mövzularında mühazirələr oxunub.

# Məhkəmə xidmətlərinin keyfiyyətini və səmərəliliyini artırmaq üçün ictimai rəy öyrənilir



**Martın 4-də Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının ümumi yığıncağı keçirilib.**

Tədbir iştirakçıları əvvəlcə Fəxri Xiyabana gələrək, müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, əziz xatirəsini böyük ehtiramla yad ediblər.

Yığıncaqda Azərbaycan Respublikası Ümumi Məhkəmə Hakimləri İctimai Birliyinin (Assosiasiyasının) və Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının illik hesabatı dinlənilib. Məruzə ilə çıxış edən birliyin və ittifaqın sədri, Yasamal Rayon Məhkəməsinin sədri Ələddin Cəfərov ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın stabil inkişafından, müxtəlif sahələrdə qazanılan uğurlardan danışıb. O, ötən ilin sentyabrında keçirilmiş referendumdan sonra baş verən mühüm yenilikləri qeyd edərək, Prezident İlham Əliyevin Sərəncamı ilə Mehriban xanım Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin edilməsinin ölkəmizin müasir dövlət idarəetməsi sistemində keyfiyyətcə yeni mərhələnin başlanğıcı olduğunu bildirib.

Tədbirdə dövlət başçısının imzaladığı "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamının xüsusi əhəmiyyəti vurğulanıb, proqram xarakterli bu mühüm sənəddən irəli gələn vəzifələr diqqətə çatdırılıb.

Ə.Cəfərov görülən işlərlə bağlı ədliyyə orqanlarının inkişafına və məhkəmə sisteminin müasirləşməsinə xidmət edən mütərəqqi islahatların müsbət nəticələrini vurğulayaraq, qeyd edib ki, uğurla aparılan məhkəm-hüquq islahatlara beynəlxalq təşkilatlar tərəfindən böyük maraq göstərilərək, bu sahədə Azərbaycan təcrübəsi ən mütərəqqi nümunə kimi qəbul edilir, ölkəmiz mötəbər qurumların rəhbərliyində fəal təmsil olunur. Ədliyyə naziri Fikrət Məmmədovun sədrlik etdiyi Məhkəmə-Hüquq Şurasının ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsi ilə bağlı mühüm fəaliyyəti qeyd edilib, məhkəmə hakimiyyətinin müstəqilliyinin gücləndirilməsinə xidmət edən islahatlar, o cümlədən məhkəmə sisteminin və infrastrukturunun müasirləşdirilməsi, yüksək beynəlxalq tələblərə cavab verən yeni məhkəmə binalarının tikilib istifadəyə verilməsi, elektron məhkəmənin və qabaqcıl İKT-lərin tətbiqi, hakimlərin Avropada örnək kimi dəyərləndirilən ən şəffaf seçimi və digər beynəlxalq miqyasda təqdir olunan nailiyyətlər xüsusilə vurğulanıb.

Tədbirdə Azərbaycan Respublikası İxtisaslaşdırılmış Məhkəmə Hakimləri İctimai Birliyinin (Assosasiyasının) sədri, Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi hesabat məruzəsi ilə çıxış edərək, Assosiasiyanın ötən dövr ərzindəki fəaliyyəti barədə ətraflı məlumat verib.

Bildirilib ki, insan hüquqlarının qorunmasını özünün ali məqsədi elan etmiş Azərbaycan dövləti nüfuzlu beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq şəraitində ədalət mühakiməsinin səmərəliliyinin





artırılmasına və məhkəmə sisteminin müasirləşdirilməsinə yönəlmiş köklü məhkəmə-hüquq islahatlarını uğurla davam etdirir. Bu baxımdan Avropa Şurası və Avropa İttifaqı tərəfindən Şərq Tərəfdaşlığı ölkələrində həyata keçirilən "Proqramlar üzrə Əməkdaşlıq Çərçivəsi"nin "Azərbaycanda məhkəmələrin səmərəliliyinin artırılmasına, hakimlərin təliminin təkmilləşdirilməsinə və məhkəmələrdə özünüidarəetməyə dəstək" layihəsi mühüm əhəmiyyət kəsb edir. Layihənin əsas istiqamətləri məhkəmə prosesində vaxtın idarə olunması və məhkəmə xidmətlərinin keyfiyyətinin artırılması, o cümlədən hakimlərin təlimi proqramının və metodologiyasının təkmilləşdirilməsidir.

Bununla əlaqədar təcrübələrin və məhkəmə xidmətlərinin keyfiyyətinin və səmərəliliyinin artırılması üçün tətbiq olunan metodların qiymətləndirilməsi, hədəflərin və Avropa Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyasının (CEPEJ) rəhbər sənədlərinin və alətlərinin icrası üçün layihə çərçivəsində icra edilməli olan konkret fəaliyyətlərin müəyyənləşdirilməsi məqsədi ilə Ədliyyə Nazirliyi və Məhkəmə Hüquq Şurası tərəfindən 5 pilot məhkəmə (Sumqayıt və Şəki apellyasiya, Sumqayıt İnzibati-İqtisadi, Yasamal və Oğuz rayon məhkəmələri) müəyyən edilib və müxtəlif vaxtlarda pilot məhkəmələrlə tanışlıq səfərləri təşkil olunub, Avropa ölkələrində və Bakıda faydalı tədbirlər keçirilib.

Layihə çərçivəsində 2016-cı il ərzində pilot məhkəmələrdə məmnuniyyət sorğularının təşkilinə hazırlıq işləri görülüb, hakim və məhkəmə aparatı işçiləri üçün məhkəmələrin idarə edilməsi mövzusunda təlimlər keçirilib, məhkəmə statistikası və məhkəmələrdə vaxtın idarə olunması üzrə CEPEJ təlimatlarının tətbiqi üzrə qabaqcıl xarici təcrübə öyrənilib.

Məmnuniyyət sorğularının keçirilməsi ilə bağlı Strasbuqda və Bakıda seminar və praktiki məşğələlər təşkil edilib, Avropa Şurasının ekspertləri tərəfindən müvafiq məlumat kitabçası təqdim olunub, sorğuların keçirilməsi metodologiyası, sorğu anketlərinin məzmunu, sualların xarakteri, onların qruplaşdırılması, sorğular keçirilməmişdən əvvəl bu barədə respondentlərin məlumatlandırılması, sorğuların keçirilməsi usulları və formaları, məlumatın toplanması və emalı, yekun hesabatın formalaşdırılması, məmnuniyyət sorğuları barədə ictimaiyyətin məlumatlandırılması barədə məlumat verilib, ayrı-ayrı ölkələrdə belə sorğuların keçirilməsi təcrübəsi öyrənilib.

Hərtərəfli nəzəri və praktiki hazırlıq əsasında 2016-cı ilin avqust-oktyabr aylarında 5 pilot məhkəmədə məmnuniyyət sorğuları keçirilib və Avropa Şurası ekspertlərinin ilkin rəyinə görə bu iş yüksək səviyyədə yerinə yetirilib. Əldə olunmuş bu mühüm təcrübənin əhəmiyyəti vurğulanaraq, qeyd olunub ki, gələcəkdə Azərbaycanın bütün məhkəmələrində belə sorğuların keçirilməsi üçün Avropa Şurası ilə qarşılıqlı faydalı əməkdaşlıq davam etdirilir.

Tədbirdə həmçinin, Ali Məhkəmənin Cinayət kollegiyasının sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Şahin Yusifov, Ali Məhkəmənin hakimləri Əsəd Mirzəliyev və Xəqani Məmmədov cinayət, mülki və inzibati-iqtisadi işlərə baxılmasının xüsusiyyətləri barədə məruzələrlə çıxış edib, Yasamal Rayon Məhkəməsinin hakimi, Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Komissiyasının (CEPEJ) vitse-prezidenti Ramin Qurbanov "Elektron Məhkəmə" İnformasiya sisteminin bəzi komponentlərinin yaradılması vasitəsilə məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılmasında əldə olunan nəticələr barədə məlumat verib, məhkəmə fəaliyyətinin aktual məsələləri ətrafında səmərəli müzakirələr, təcrübə və fikir mübadiləsi aparılıb.

Yığıncaqda həmçinin, təşkilati məsələlərə baxılıb, hər iki birliyə yeni üzvlər qəbul edilib.




# Преступления против человечности: новые перспективы международно-правовой регламентации в свете деятельности комиссии международного права ООН

***Низами САФАРОВ*** *- доктор юридических наук, заведующий отделом Административного и военного законодательства Аппарата Милли Меджлиса Азербайджанской Республики, эксперт подразделения по предупреждению терроризма Управления ООН по наркотикам и преступности, член Римской исследовательской группы по проблемам Международного уголовного суда*

***Максим КУЦЕВИЧ*** *- кандидат юридических наук, доцент, заместитель декана юридического факультета Киевского национального университета им. Т.Г. Шевченко*

Преступления против человечности в международном уголовном праве относятся к категории т.н. *core crimes* (ключевых, основных преступлений), *universal crimes* (универсальных преступлений), *erga omnes* или *jus cogens crimes* (преступлений против императивных норм международного права), посягающих на фундаментальные основы международного правопорядка. Однако, несмотря на то, что в преследовании указанных деяний, безусловно, существовал юридический интерес всего мирового объединения государств и преступления против человечности, как это было специально отмечено в Преамбуле Римского статута Международного уголовного суда (далее - МУС), относятся к числу самых серьезных преступлений, вызывающих озабоченность всего международного сообщества, в отличие от геноцида и военных преступлений они не стали предметом регламентации специализированной конвенции.

В целом, зарождение концепции "преступлений против человечности" органически связано с II-ой и IV-ой Гаагской Конвенциями о законах и обычаях сухопутной войны 1899 г. и 1907 г., содержащих знаменитую оговорку выдающего российского ученого и дипломата Ф.Ф. Мартенса, содержащими ссылки на *"законы человечности" (laws of humanity)*[1].

В этом отношении, вплоть до 1945 г. в договорном праве только в Преамбуле двух вышеупомянутых Гаагских конвенций использовались слова, содержащие ссылки на категорию *"человечности"*[2].

Что же касается введения в международно-правовой оборот современной концепции

[1] Согласно п. 8 Преамбулы Конвенции 1907 г. предусматривалось: "Впредь до того времени как представится возможность издать более полный свод законов войны, Высокие Договаривающиеся Стороны считают уместным засвидетельствовать, что в случаях, не предусмотренных принятыми ими постановлениями, аселение и воюющие остаются под охраною и действием начал международного права, поскольку они вытекают из установившихся начал между образованными народами обычаев, *законов человечности* и требований общественного сознания". См. подробнее: *Hwang P.* Defining Crimes against Humanity in the Rome Statute of International Criminal Court// Fordham Journal of International Law. 1998. Vol. 22. № 2. P. 458-459; *Robinson D.* Defining Crimes Against Humanity in the Rome Conference// American Journal of International Law. 1999. Vol. 93. № 1. P. 43; *Meron T.* The Martens Clause, Principles of Humanity, and Dictates of Public Conscience// American Journal of International Law. 2000. Vol. 94. № 1. P. 78-89; *Лукашук И.И.* Международное право: Особенная часть. М., 2010. С. 320; *Salter M.* Reinterpreting Competing Interpretations of the Scope and Potential of Martens Clause// Journal of Conflict and Security Law. 2012. Vol. 17. № 3. P. 403; *Trindade A.* Some Reflections on the Principle of Humanity in its Wide Dimension //Research Handbook on Human Rights and Humanitarian Law/ Ed. by R. Kolb, G. Gaggioli. Cheltenham, 2013. P. 191; *Giladi R.* The Enactment of Irony Reflections on the Origin of the Martens Clause// European Journal of International Law. 2014. Vol. 25. № 3. P. 848.

[2] *Bassiouni C.* Crimes against Humanity: Historical Evolution and Contemporary Application. Cambridge: Cambridge University Press, 2011. P. 86.

"преступлений против человечности", то она датируется периодом окончания Второй мировой войны, когда со стороны четырех союзных держав (СССР, Великобритании, США и Франции) 8 августа 1945 г. было подписано Лондонское соглашение, к которому прилагался Устав Международного уголовного трибунала для судебного преследования и наказания главных военных преступников европейских стран "оси"[3]. Именно в данном Уставе было дано нормативно-правовое определение категории "преступлений против человечности". Согласно п. "c" ст. 6 предусматривалось, что Трибунал, учрежденный в соответствии Соглашением, упомянутым в ст. 1 настоящего Устава, имеет право судить и наказывать лиц, которые индивидуально или в качестве членов организации совершили преступления против человечности убийства, истребление, порабощение, ссылку и другие жестокости, совершенные в отношении гражданского населения до или во время войны, или преследования по политическим, расовым или религиозным мотивам в целях осуществления или в связи с любым преступлением, подлежащим юрисдикции Трибунала, независимо от того, являлись ли эти действия нарушением внутреннего права страны, где они были совершены, или нет[4]. При ознакомлении со ст. 6 ("c") Устава Нюрнбергского трибунала может создаться впечатление, что преступления против человечности не обусловлены наличием войны. Однако заключительная часть указанной статьи показывает, что в тот момент преступления против человечности рассматривались только в связи со ст. 6 ("a"), признававшей преступным подготовку и развязывание агрессии. Судебное постановление, вынесенное в Нюрнберге, не оставляет никаких сомнений на этот счет[5].

Категория "преступления против человечности" с учетом исключительного характера ущерба, причиняемого охраняемым международным правом интересам и необходимости адекватной правовой реакции со стороны международного сообщества, была включена уже в первоначальный проект Кодекса преступлений против мира и безопасности человечества, подготовленного Специальным докладчиком Комиссии международного права ООН Жаном Спиропулосом *(Jean Spiropoulos)* в 1950 г.[6]

В проекте указанного Кодекса, принятом КМП в 1996 г. во втором чтении, преступлениям против человечности была посвящена ст. 18, которая опиралась на определение соответствующих преступлений, содержащихся в Уставе Нюрнбергского военного трибунала в его толковании и применении этим трибуналом, с учетом новых моментов, появившихся в международном праве после Нюрнбергского процесса.

Нормативно-правовое развитие концепции "преступлений против человечности" после окончания Второй мировой войны было связано с учреждением Международных уголовных трибуналов *ad hoc* по бывшей Югославии и Руанде. В Уставе МУТБЮ (ст. 5) впервые была дана международно-правовая формулировка преступлений против человечности, в соответствии с которой международный трибунал был полномочен осуществлять судебное преследование лиц, ответственных за следующие преступления, когда они совершаются в ходе вооруженного конфликта, будь то международного или внутреннего характера, и направлены против любого гражданского населения: a) убийства; b) истребление; c) порабощение; d) депортация; e) заключение в тюрьму; f) пытки; g) изнасилования; h) преследование по политическим, расовым или религиозным мотивам; i) другие бесчеловечные акты[7]. Как видно из данного определения, юрисдикция МУТБЮ была ограничена преступлениями против человечности, совершенными в ходе вооруженного конфликта, будь то конфликт международного

[3] См.: *Clark R.* History of Efforts to Codify Crimes Against Humanity: From the Charter of Nuremberg to the Statute of Rome// Forging a Convention for Crimes Against Humanity/ Ed. by L. N. Sadat. Cambridge, 2011. P. 8.

[4] *Agbor A.* Instigation to Crimes against Humanity: The Flawed Jurisprudence of the Trial and Appeal Chambers of the International Tribunal for Rwanda (ICTR). Leiden, 2103. P. 91.

[5] *Давид Э.* Принципы права вооруженных конфликтов. М., 2000. С.539.

[6] Задача подготовки Кодекса преступлений против мира и безопасности человечества была возложена на Комиссию международного права в 1947 г. в соответствии с резолюцией Генассамблеи 177 (II). Комиссия приступила к рассмотрению Проекта в 1949 г., назначив специальным докладчиком Жана Спиропулоса.

[7] *Blewitt G.* The International Criminal Tribunals for the Former Yugoslavia and Rwanda// Justice for Crimes against Humanity/ Ed. by. M. Lattimer, P. Sands. Oxford and Portland, Oregon, 2004. P. 156.

или внутреннего характера. При этом ссылка на характер конфликта в ст. 5 являлось отражением связи с событиями на территории бывшей Югославии, не означающая применения каких-либо критериев, которые раннее использовались в международном уголовном праве, что нашло свое подтверждение в прецедентной практике МУТБЮ.

В отличие от ситуации с МУТБЮ, принятый позднее Устав МУТР не связывал преступления против человечности с вооруженным конфликтом, хотя и предусматривал в качестве юрисдикционного условия для их преследования дискриминационный умысел, указывая в ст. 3 на соответствующие преступления, совершаемые в рамках *широкомасштабного или систематического нападения на гражданское население по национальным, политическим, этническим, расовым или религиозным мотивам*[8]. Указанные разночтения объясняются ситуационной природой основных правовых актов уголовных трибуналов *ad hoc*. Указывая в ст. 5 на то, что преступление должно быть совершено "в ходе вооруженного конфликта, будь то международного или внутреннего характера", Устав МУТБЮ просто проводил связь в пространстве и времени с югославским конфликтом. Данная норма ни в коем случае не означала повторного введения в оборот дополнительного условия, содержащегося в Уставе Нюрнбергского трибунала и от которого давно отказались. Что же касается юрисдикционного условия в ст. 3 Устава МУТР, то данное положение должно рассматриваться не в качестве условия, ограничивающего определение преступления, а в качестве средства, ограничивающего юрисдикцию Трибунала именно такими преступлениями против человечности, которые являлись типичными для ситуации в Руанде[9].

Преступления против человечности в качестве одной из категорий уголовно-наказуемых деяний были также включены в юрисдикцию Специального суда по Сьерра-Леоне, учрежденного во исполнение Резолюции Совета Безопасности ООН № 1315 (2000) от 14 августа 2000 г. и в соответствии с двусторонним договором от 16 января 2002 г. между Правительством Сьерра-Леоне и ООН. Согласно Уставу Специального суда, он полномочен осуществлять судебное преследование лиц, ответственных за следующие преступления, когда они совершаются в рамках широкомасштабного или систематического нападения на любое гражданское население: a) убийство; b) истребление; c) порабощение; d) депортация; e) заключение в тюрьму; f) пытки; g) изнасилование, обращение в сексуальное рабство, принуждение к проституции, принудительная беременность и любые другие формы сексуального насилия; h) преследования по политическим, расовым, этническим или религиозным мотивам; i) другие бесчеловечные деяния[10].

Преступления против человечности предусматривает также Закон об учреждении чрезвычайных палат в судах Камбоджи для преследования преступлений, совершенных в период Демократической Кампучии от 27 октября 2004 г. Согласно ст. 5 указанного Закона, преступления против человечности, на которые не распространяются сроки давности, означают любые деяния, которые совершаются в рамках

---

[8] См. подробнее: Judicial Creativity at the International Criminal Tribunals/ Ed. by S. Darcy, J. Powderly. Oxford, 2010; The Legacy of the International Criminal Tribunal for the Former Yugoslavia// Ed. by B. Swart B., A. Zahar, G. Sluiter. Oxford, 2011; *Shahabuddeen M.* International Criminal Justice at the Yugoslav Tribunal: A Judge's Recollection. Oxford, 2012.

[9] *Верле Г.* Принципы международного уголовного права. М., 2011. С. 395. См. подробнее: *Van den Herik L.* The Contribution of the Rwanda Tribunal to the Development of International Law. Leiden, 2005. P. 158-159, 175-176; *Agbor A.* Instigation to Crimes against Humanity: The Flawed Jurisprudence of the Trial and Appeal Chambers of the International Tribunal for Rwanda (ICTR). P. 83-119.

[10] *Frulli M.* The Special Court for Sierra Leone: Some Preliminary Comments// European Journal of International Law. 2000. Vol. 11. № 4. P. 863-864; Schocken C. The Special Court for Sierra Leone: Overview and Recommendations// Berkeley Journal of International law. 2002. Vol. 20. № 2. P. 448; *Beigbeder Y.* International Justice Against Impunity: Progress and New Challenges. Leiden, 2005. P. 117-118; *Schabas W.* The UN International Criminal Tribunals: The Former Yugoslavia, Rwanda and Sierra Leone. Cambridge, 2006. P. 34-40; *C. da Silva.* The Hybrid Experience of the Special Court for Sierra Leone// Research Handbook on International Criminal Law. Ed. by B. Brown. Cheltenham, 2011. P. 237-239; *Knoops G.-J.* An Introduction to the Law of International Criminal Tribunals: A Comparative Study. Leiden, 2014. P. 14-15 *Jalloh C.* Introduction// The Sierra Leone Special Court and Its Legacy: The Impact for Africa and International Criminal Law/ Ed. by C. Jalloh. Cambridge, 2015. P. 9-15.

широкомасштабного или систематического нападения, непосредственно направленного на любое гражданское население по национальным, политическим, этническим, расовым или религиозным основаниям, такие как убийство, истребление, порабощение; депортация; заключение в тюрьму; пытки; изнасилование, преследования по политическим, расовым и религиозным мотивам; другие бесчеловечные деяния[11].

Несмотря на то, что преступления против человечности фигурировали в Уставах различных международных судебных учреждений, первым международно-правовым договорным инструментом универсального характера, в котором была осуществлена полномасштабная и всесторонняя кодификация данной категории международных преступлений явился Римский статут МУС, содержащий наиболее полное и емкое определение преступлений против человечности.

Определения и система преступлений против человечности не относятся к числу нововведений Римского статута, а опирались на развитие международного гуманитарного права в пост-Нюрнбергский период.

Согласно ст. 7 Римского статута применительно к его целям "преступление против человечности" означает любое из следующих деяний, когда они совершаются в рамках широкомасштабного или систематического нападения на любое гражданское население, и если такое нападение совершается умышленно: a) убийство; b) истребление; c) порабощение; d) депортация или насильственное перемещение населения; e) заключение в тюрьму или другое жестокое лишение физической свободы в нарушение основополагающих норм международного права; f) пытки; g) изнасилование, обращение в сексуальное рабство, принуждение к проституции, принудительная беременность, принудительная стерилизация или любые другие формы сексуального насилия сопоставимой тяжести; h) преследование любой идентифицируемой группы или общности по политическим, расовым, национальным, этническим, культурным, религиозным, гендерным, как это определяется в пункте 3, или другим мотивам, которые повсеместно признаны недопустимыми согласно международному праву, в связи с любыми деяниями, указанными в данном пункте, или любыми преступлениями, подпадающими под юрисдикцию Суда; i) насильственное исчезновение людей; j) преступление апартеида; k) другие бесчеловечные деяния аналогичного характера, заключающиеся в умышленном причинении сильных страданий или серьезных телесных повреждений или серьезного ущерба психическому или физическому здоровью.

Итак, категория "преступлений против человечности" представляет собой логическое развитие концепции международных преступлений, опирающееся на предшествующие достижения международного уголовного права. Например, истребление, предусмотренное в п. "b" ч. 2 ст. 7 Римского статута охватывалось ст. 6с Нюрнбергского устава, п. "с" ч. 1 с. II ЗКС № 10, п. "b" ст. 5 Устава Международного военного трибунала для Дальнего Востока (Токийский трибунал), п. "b" ст. 5 Устава МУТБЮ, п. "b" ст. 3 Устава МУТР. Порабощение как уголовно-наказуемое деяние согласно Статуту МУС (п. "с" ч. 1 ст. 7) ранее предусматривалось ст. 6 (п. "с") Нюрнбергского устава, п. "с" ч. 1 с. II ЗКС № 10, п. "с" ст. 5 Устава Токийского трибунала, п. "с" ст. 5 Устава МУТБЮ, п. "с" ст. 3 Устава МУТР. Аналогичным образом депортация (п. "d" ч. 1 ст. 7 Римского статута) ранее предусматривалась в ст. 6с Нюрнбергского устава, п. "с" ч. 1 с. II ЗКС № 10, п. "с" ст. 5 Устава Токийского трибунала, п. "d" ст. 5 Устава МУТБЮ, п. "d" ст. 3 Устава МУТР. В то же время, как показывает анализ ст. 7 Римского статута, целый ряд моментов, связанных с определением преступлений против человечности носит инновативный характер.

В частности, хотя "депортация" ранее и рассматривалась как преступление против человечности в учредительных документах международных судебных институций, в Статуте МУС в качестве альтернативы предусматривается также "насильственное перемещение на-

[11] http://www.eccc.gov.kh/sites/default/files/legal-documents/KR_Law_as_amended_27_Oct_2004_Eng.pdf. См.: *Williams S.* Hybrid and Internationalized Criminal Tribunals: Selected Jurisdictional Issues. Oxford and Portland, Oregon, 2012. P. 128-132; *Vianney-Liaud M.* Determining the Relationship between International and Domestic Laws Within an Internationalized Court: An Example From the Cambodian Extraordinary Chambers' Jurisdiction Over International and Domestic Crimes// Goettingen Journal of International Law. 2014. Vol. 6. P. 314-316.

селения". При этом согласно п. "d" ч. 2 ст. 7 Статута "депортация или насильственное перемещение населения" означают насильственное перемещение лиц, подвергшихся выселению или иным принудительным действиям, из района, в котором они законно пребывают, в отсутствие оснований, допускаемых международным правом. Как отмечается в литературе, включение не только депортации, но и насильственного перемещения в ст. 7 Римского статута преследовало цель, исключить всякие сомнения о том, что трансфер населения пределах границ государства также составляет преступление против человечности[12].

Для того, чтобы деяние подпадало под категорию преступлений против человечности, пороговое условие или *chapeau* ст. 7 Римского статута предусматривает четыре важнейших условия, в соответствии с которыми соответствующее действие - нападение, должно:

а) представлять собой часть широкомасштабных или систематических атак;

б) быть направлено против гражданского населения;

в) совершаться умышленно, означающее, что *mens rea* деяния охватывает осознание непосредственной направленности соответствующих действий против любого гражданского населения;

г) представлять собой многократное совершение актов нападения в целях проведения политики государства или организации, направленной на совершение такого нападения, или в целях содействия такой политике.

Таким образом, как следует из вышеизложенного современная кодификация преступлений против человечности получила свое отражение в Римском статуте МУС. Однако в отличие от таких ключевых преступлений как геноцид либо военные преступления, являющихся предметом специфических договорных обязательств, отраженных с специальных конвенциях (Конвенция о предупреждении и наказании преступления геноцида 1948 г. и Женевские конвенции 1949 г. и Протокол I) , преступления против человечности, как было отмечено выше, не рассматриваются в рамках правового регулирования отдельного международного договора.

Следует заметить, что крупнейшие представители доктрины международного уголовного права неоднократно выступали с идеей разработки и принятия Конвенции о преступлениях против человечности. В частности, на это указывал проф. Шериф Бассиуни[13]. Он отмечал, что за прошедшее столетие в ходе различных конфликтов погибло больше людей, чем за предыдущую историю человечества. Причем большинство из них стало жертвами именно преступлений против человечности[14]. Однако, несмотря на это, международному сообществу до сих пор не удалось принять специализированную конвенцию по преступлениям против человечности . Хотя в международном праве можно начитать как минимум 12 различных определений против человечности, вместе с тем, указанные дефиниции характеризуются двумя, безусловно, общими элементами: 1) исполнители преступления действуют в русле соответствующей государственной политики [или плана]; 2) деяния, составляющие категорию "преступлений против человечности", и в частности, убийства, пытки, изнасилования и т.д., имеют место в рамках широкомасштабного или систематического нападения против гражданского населения[15]. По мнению Ш. Бассиуни, одной из основных причин того, что Конвенция о преступлениях против человечности не была принята, явились опасения со стороны официальных властей государств относительно возможного уголовного преследования политических лидеров, а также лиц, занимающих высокие посты в вооруженных силах, в полиции, органах разведки и т. д.[16]

Таким образом, с учетом необходимости устранения серьезной пробельности в системе

[12] *Rüskert W., Witschel G.* Genocide and Crimes against Humanity in the Elements of Crimes// International and National Prosecution of Crimes under International Law. Current Developments/ Ed. by H. Fischer, C. Kress, S. L?der S. Berlin, 2001. P. 77.

[13] *Bassiouni C.* "Crimes against Humanity": The Need for a Specialized Convention// Columbia Journal of Transnational Law. 1994. Vol. 31. P. 457-467.

[14] *Bassiouni C.* Crimes against Humanity: The Case for a Specialized Convention// Washington University Global studies Law Review. 2010. Vol. 9. № 4. P. 575.

[15] Ibid. P. 583.

[16] Ibid. P. 585.

международного уголовного права, а также исходя из понимания исключительной важности предупреждения и пресечения преступлений против человечности, Комиссия международного права ООН (далее - КМП) на своей шестьдесят пятой сессии в 2013 г. постановила включить тему "Преступления против человечности" в свою долгосрочную программу работы[17].

*Kiprianu (Kyprianou) Kiprə qarşı* işində məhkəmə iclasında hakimlərin bir-birinə yazılı kağız ötürməsinə etiraz olaraq vəkilin "..mən təəssüflənirəm ki, şahidin çarpaz dindirilməsi aparılan zaman hakimlər öz aralarında söhbət edir və biri-birinə *"ravasakia"* (red- sevgi məktubu və ya xoşagəlməz məzmunlu məktub) məktubları ötürürdülər"

ifadəsini məhkəməyə təhqir hesab edərək vəkilin 5 gün müddətinə azadlıqdan məhrum edilməsini də cinayət cəzası hesab etmişlər. Baxmayaraq ki, CM-in 55.2-ci maddəsinə görə, azadlıqdan məhrum etmənin minimum həddi 3 aydır.

*2.2.a.c. Mümkün cəzanın xarakteri və ağırlıq dərəcəsi*

Əgər hüquq pozuntusunun xarakterinin müəyyən edilməsi ilə 6-cı maddənin tətbiqi mümkün olmazsa onda 3-cü kriteriya - "cəzanın xarakteri və ağırlığı" işə düşəcəkdir. Cəzanın xarakteri və ağırlığı ittihamın cinayət və ya digər hüquqpozma olduğunu müəyyən etməyə imkan yaradacaqdır.

Əgər cəza tənbeh və xəbərdarlıq təyinatlıdırsa, bu zaman proses "cinayət" anlayışının təsirinə düşür. Cəza kifayət qədər sərtdirsə (uzun müddətli azadlıqdan məhrumetmə) 6-cı maddə "cinayət" anlayışının təsiri altında tətbiq ediləcəkdir [15].

Qanunun aliliyini qəbul edən cəmiyyətdə, xarakterinə, müddətinə və ya icra formasına görə əhəmiyyətli zərərin vurulmasına gətirməyənlər istisna olmaqla, cəzalandırma tədbiri kimi tətbiq edilən azadlıqdan məhrum etmə "cinayət" sahəsinə aid edilir. Sözü gedən məsələnin ciddiliyi, hər bir ölkənin ənənələri və şəxsin fiziki azadlığına Konvensiya tərəfindən irəli sürülən tədbirlər - bütün bunlar bunun məhz belə olmasını tələb edir [16]. *Kempbell və Fell Birləşmiş Krallığa qarşı* məhkəmə işində Məhkəmə bəyan etdi ki, fərdin vaxtından əvvəl azadlığa buraxılmaq hüququndan təxminən üç il müddətində məhrum edilməsi hətta bu hüququn İngiltərə qanunvericiliyində hüquq hesab edilməkdən daha çox imtiyaz hesab edilməsinə baxmayaraq nəzərə alınmalı olan amildir. Çünki o məhbusun azadlığa çıxmaq üçün gözlədiyi müddətə təsir göstərərək onun həbsdə qalma müddətinin uzanmasına səbəb olur. ...*Engel və başqaları Niderlanda qarşı* məhkəmə işindən gətirilmiş sitatda qeyd edildiyi kimi, 6-cı maddə heç də bütün azadlıqdan məhrum edilmə hallarına tətbiq edilmir. İki gün ərzində davam etmiş həbs ona cinayət cəzası kimi baxılması üçün kifayət deyil [17]. Bəzi məhkəmə təcrübələrinə istinadən "cinayət" cəzası hesab olunan hallara misallar göstərək: 1. Hərbi intizam prosesi çərçivəsində şəxsi 3 aydan 4 aya kimi azadlıqdan məhrum etmə *(Engel işi)*; 2. Məhkumların qiyamına görə həbsdən azad olunma müddətinin müəyyən dövr üçün itirilməsi *(Compbell və Fell işi)*; 3. Məhbusu intizam prosesləri çərçivəsində ən azı yeddi "əlavə gün" saxlama *(Ezeh and Connors işi)* [18];

CPM-in 310.6-cı maddəsində nəzərdə tutulmuş 48 saat müddətinə tutma və MPM-in 177.3-cü maddəsində təsbit olunmuş 24 saat müddətinə tutma tədbirlərinin İHAM-in presedent hüququnda "cinayət" ittihamı anlayışı aspektindən araşdırılmasına da zərurət vardır. Məsələn, G məhkəməsinin icraatında olan cinayət işi üzrə şahid A məhkəməyə sədrlik edən tərəfindən xəbərdarlıq edilməsinə baxmayaraq təkrarən icazəsiz video çəkilişdən istifadə etdiyinə görə CPM-in 310.6-cı maddəsinə əsasən, 48 saat müddətinə tutulmuşdur. Yuxarıda qeyd olunan məntiqi ardıcıllığı bu "iş" üzrə tətbiq etsək, əməl 1-ci kriteriyanın - *daxili qanunvericilikdə cinayət ittihamının tövsifi* tələblərinə cavab verməyəcəkdir. Belə ki, bunun üçün əməl CM-də təsbit olunmalı idi. Buna görə də 2-ci kriteriya - *hüquq pozuntusunun xarakteri* "işə" düşür ki, əməl həmin kriteriyaya da cavab vermir. Belə ki, CPM-in 310.6-cı maddəsinə görə, bu əməl nə inzibati, nə intizam, nə də cinayət məsuliyyətinə səbəb olmur. Bu "iş" üzrə İHAM-ın 6-cı maddəsinin tətbiq edilib-edilməməsi məsələsində 3-cü kirteriya - *mümkün cəzanın xarakteri və ağırlıq dərəcəsi* aspektindən baxmağı vacib hesab edirik.

Əgər şübhəlinin yüngül həbs (azadlığın məhdudlaşdırılması olmadan) olunma və ya 2 gün müddətinə ciddi həbs olunma riski varsa, bu "cinayət" anlayışına şamil olunmurdu. Lakin Məhkəmə (red - İHAM) daha sonrakı presedent hüququnda azadlığın hətta qısa müddətə məhdudlaşdırılmasını da cəza kimi qəbul edərək 6-cı maddəni tətbiq etdi. Belə ki, *Zaicevs Latviyaya qarşı* işində (2007) hüquqşünasın məhkəmə tərəfindən 3 gün müddətinə azadlıqdan məhrum edilməsi, 6-cı maddənin təsiri altına düşməsi üçün kifayət etdi, baxmayaraq ki, daxili qanunvericilik bu prosesi cinayət kimi təsnif etmirdi və əməlin xarakteri də ümumi deyildi *(red - yəni, 1-ci və 2-ci kriteriyaya cavab vermirdi)*. Məhkəmə (red - İHAM) qısa müddətli intizam cəzasına görə 6-cı maddədə qeyd olunmuş "cinayət" anlayışının tətbiqi üçün azadlıqdan məhrum etmənin sabit aşağı həddini müəyyən etmədi, baxmayaraq ki, *Engel* işində 2 gün müddətinə azadlıqdan məhrum etmə "cinayət" anlayışı üçün kifayət etməmişdi [19].

Əvvəllər İHAM presedent hüququnda əmələ görə təyin edilmiş azadlıqdan məhrum etmə müddəti "cinayət" anlayışının müəyyən olunmasında vacib rol oynayırdısa, daha sonrakı təcrübə tətbiq edilən tədbirin xəbərdarlıq və tənbeh təyinatına malik olub-olmamasını əsas götürdü. Təsadüfi deyil ki, İHAM presedent hüququnda yüngül həbslər (azadlıqdan məhrum etmə ilə bağlı olmayan) və ya hərbi intizam proseslərində 2 günlük ciddi həbslər *(Engel işi)* "cinayət" cəzası hesab olunmamışdır [20]. Lakin presedent hüququ formalaşdıqca belə qənaətə gəlinmişdir ki, hətta törədilmiş əmələ görə azadlıq-

dan məhrum etmə deyil, cərimə də tətbiq edilmiş olsa belə tətbiq edilən cərimə tənbeh və xəbərdarlıq təyinatlıdırsa bu əməl "cinayət" anlayışın əhatəsi dairəsinə düşməklə 6-cı maddənin tətbiqi üçün əsas olacaqdır. Məsələn, *Öztürk Almaniyaya qarşı* işində (1984) cəriməni İHAM tənbeh və xəbərdarlıq təyinatına malik hesab edərək 6-cı maddənin tətbiqi üçün əsas saydı. Hətta *Matyjek Polşaya qarşı* işində (2006) İHAM dövlət orqanlarında müəyyən vəzifə tutmaq hüququnun qadağan edilməsini cəzalandırıcı və xəbərdarlıq elementli hesab edərək "cinayət" anlayışına daxil etməklə 6-cı maddənin tətbiqini mümkün hesab etmişdir [21].

Yuxarıda şərh olunanlardan aydın olur ki, CPM-in 310.6 və MPM-in 177.3-cü maddəsində nəzərdə tutulmuş əməllərə görə 24 və ya 48 saat müddətinə tutma, habelə cərimə tətbiq etmək İHAM presedent hüququ aspektindən cinayət cəzası xarakterlidir. Çünki bu əməllərə görə tətbiq edilən bu kimi tənbehlər kompensasiya xarakterindən daha çox xəbərdarlıq və tənbeh elementinə malikdir. Belə ki, məhkəməyə hörmətsizlik göstərən şəxsin tutulması və ya cərimə olunması ilə pozulmuş və ya xələl gətirilmiş münasibətlər bərpa olunmur, "kompensasiya" edilmir. Əksinə, təqsirkar şəxslərə cərimə və ya tutmanın tətbiq edilməsi daha çox həmin şəxs və digər şəxsləri oxşar xarakterli əməllərin törədilməsindən çəkindirmək (xəbərdarlıq), törədilmiş əmələ görə təqsirkar şəxsi məhrumiyyətə düçar etmək (tənbeh) məqsədi daşıyır.

*2.2.b. İHAM presedent hüququnda qərəzsizlik prinsipi*

Məhkəmənin "müstəqilliyi" anlayışı hakimiyyətin digər qollarının məhkəmə orqanlarının işinə müdaxilə etməsinə qarşı qanunvericilik və təşkilati təminatların olub-olmadığını özündə ehtiva etdiyi halda, "qərəzsizlik" anlayışı məhkəmənin proses tərəfləri qarşısındakı müstəqilliyini nəzərdə tutur... "Qərəzsizlik" tərəflərə qarşı qərəzli münasibətin və ya tərəfkeşliyin olmaması deməkdir. Qərəzsizlik iki meyar əsasında qiymətləndirilir: ***subyektiv və obyektiv*** meyar [22]. İHAM *Lindon, Otchakovsky-Laurens və July Fransaya qarşı* işi üzrə 22 oktyabr 2007-ci il tarixli Qərarında qeyd etmişdir ki, məhkəmənin qərəzsizliyi Konvesiyanın 6-cı maddəsinin 1-ci bəndinin mənasına görə məhkəmədə qabaqcadan formalaşmış yanlış fikirlərin və qabaqcadan hasil olan qənaətlərin olmamasını ehtiva edir. Məhkəmənin qərəzsiz olmasının müəyyən edilməsinin iki metodu möcuddur: 1) konkret hakimin işə dair şəxsi fikrinin və ya hər hansı marağının müəyyən edilməsi cəhdi; 2) hakimin bu məsələyə dair hər hansı qanuni şübhələri istisna etməyə imkan verən zəmanətləri təmin edə bilib-bilməməsinin müəyyən edilməsi [23]. *Kiprianu (Kyprianou) Kiprə qarşı* işi üzrə İHAM-ın 15.12.2005-ci il tarixli qərarının 118-ci paraqrafına görə, *qərəzsizlik, adətən əvvəlcədən yaranmış fikrin və işin nəticəsində marağın olmaması deməkdir və müxtəlif üsullarla yoxlanıla bilər. Avropa Məhkəməsi hakimin konkret iş üzrə şəxsi fikirlərini və marağını qiymətləndirmək məqsədi güdən subyektiv yanaşmanı və məhkəmənin qərəzsizliyinə şübhələrin aradan qaldırılması üçün kifayət qədər təminatın verilib-verilmədyini müəyyən edən obyektiv yanaşmanı fərqləndirmişdir... Üçüncü meyara gəldikdə isə, bir neçə hakimdən ibarət iclasla bağlı, bu, hər bir hakimin şəxsi davranışından məhkəmənin qərəzsizliyinə işarə edən müəyyən faktların olub-olmadığının müəyyən edilməsi deməkdir. Bu baxımdan bərabər tabeliyin olması vacibdir. Qərəzlilik əlamətlərinin mövcud olub-olmadığını müəyyən etmək zərurəti yarandıqda, bunu təkzib edənlərin mövqeyi mühümdür, lakin həlledici deyil. Bu əlamətlərin obyektiv müşahidəçi tərəfindən aşkar oluna bilməsi vacibdir* [24].

Subyektiv meyar hakimin konkret işdə şəxsi maraqlarının və ya prosesdəki tərəflərə münasibətdə qərəzliliyinin və ya tərəfkeşliyinin olub-olmadığını müəyyənləşdirmək üçün tətbiq edilir. Subyektiv meyarın şərtləri obyektiv meyarın şərtlərindən daha ciddidir və ərizəçidən ciddi sübutlar tələb olunur. Əksi sübut edilməyibsə hakimin qərəzsiz olduğu ehtimal edilir. ...Qərəzsizliyin qiymətləndirilməsinin obyektiv meyarının şərtləri subyektiv meyarının şərtlərindən daha yumşaqdır və müvafiq olaraq ərizəçinin üzərinə düşən sübutetmə yükü o qədər də ağır deyil. Adi (neytral) müşahidəçinin rəyinə görə məhkəmənin tərkibində və ya davranışında zahiri qərəzlilik əlamətlərinin olması və ya qərəzliliyə dair əsaslı şübhələrin olması məhkəmənin qərəzli hesab edilməsi üçün kifayətdir. Subyektiv meyardan fərqli olaraq, ərizəçinin obyektiv qərəzsizliklə bağlı şübhələrinin olduğunu iddia etməsi məhkəmənin qərəzliliyi ehtimalını doğurur və bu ehtimalı təkzib etmək üçün cavabdeh dövlət hər hansı əsaslı şübhəni aradan qaldıran kifayət qədər prosessual təminatların mövcud olduğunu sübut etməlidir. ...Obyektiv və subyektiv meyarlar əsasında qiymətləndirmə aparılarkən əsaslı şübhənin mövcudluğunu təsdiq edən ciddi dəlillərin tələb olunması bəzən bu meyarlar arasında dəqiq sərhədin silinməsinə gətirib çıxarır [25]. İHAM presedent hüququnda obyektiv qərəzsizliyin pozuntusuna aid aşağıdakıları misal göstərə bilərik: 1. Hakimin əvvəllər prokurorluq orqanında təqsirləndirilən şəxs barəsində cinayət təqibinin həyata keçirilmə-

sinə cavabdeh olan şöbəyə rəhbərlik etməsi; 2. Əvvəllər işin istintaqını aparmış hakimin sonradan həmin cinayət işinə mahiyyəti üzrə baxması; [26] 3. Birinci instansiya məhkəməsi tərəfindən qərarın qəbulunda iştirak etmiş üç hakimin apellyasiya məhkəməsindəki araşdırmadan iştirakı [27].

*Kiprianu (Kyprianou) Kiprə* qarşı işi üzrə İHAM-ın 15.12.2005-ci il tarixli qərarının 119-cu paraqrafına görə, *Avropa Məhkəməsi Konvensiyanın 6-cı maddəsinin pozulmasının subyektiv maraqlılıq çərçivəsində müəyyən edilməsinin çətin olduğunu etiraf etmişdir və buna görə də məhkəmənin mümkün maraqlılıq məsələsinə dair işlərin böyük əksəriyyətində öz diqqətini obyektiv meyara cəmləmişdir. Lakin bu iki anlayışlar arasında dəqiq sərhəd yoxdur, belə ki, hakimin hərəkətləri, kənar müşahidəçinin nöqteyi-nəzərinə görə, nəinki təkcə marağın olduğuna dair obyektiv təhlükəni təlqin edə bilər (obyektiv meyar), onlar həm də hakimin şəxsi əqidəsinə toxuna bilər (subyektiv meyar)* [28]. Həmin işin 126 və 127-ci paraqraflarında qeyd olunmuşdur ki, *Avropa Məhkəməsi xatırlatmışdır ki, Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi və Konvensiyanın 5-ci maddəsinin 3-cü bəndinə aid hissəsində hakim və ittihamçının funksiyalarının qarışdığı şəraitin obyektiv qiymətləndirilməsində çətinliklərlə qarşılaşmışdır... Bu iş məhkəmə zalında bilavasitə şəxsən hakimlərə qarşı yönəldilmiş təhqirə aiddir. Hakimlər ərizəçinin onların araşdırma aparma üsulları ilə bağlı bilavasitə tənqid obyekti olmuşlar. Eyni hakimlər ərizəçinin məsuliyyətə cəlb edilməsi haqqında qərar qəbul etdikdən sonra ərizəçinin davranışına baxmış, onu təqsirli hesab etmiş və azadlıqdan məhrumetmə cəzası təyin etmişlər. Bu vəziyyətdə iddiaçı, şahid, ittihamçı və hakim rollarının qarışması özü-özlüyündə zamanın sınağından keçmiş - "heç kəs öz işində hakim ola bilməz" prinsipindən çıxış edərək, məhkəmənin qərəzsizliyi ilə bağlı obyektiv olaraq özünü doğrultmuş şübhələr yaradır (bax: Avropa Məhkəməsinin "Demikoli Maltaya qarşı" (Demicoli v. Malta) işi üzrə 27 avqust 1991-ci il tarixli Qərarı, Series A, N 210, pp. 18 - 19, § 41 - 42). (127)* [29].

Yuxarıda qeyd olunanlardan aydın olur ki, CPM-in 310.6 və MPM 177.3-cü maddələrində nəzərdə tutulmuş hallarda təqsirkar hakimin məhkəmə qaydasının təmin edilməsinə yönəlik qanuni tələblərini pozmaqla məhkəməyə hörmətsizlik ifadə edir ki, bu əməldən də hakim zərər çəkir.

**III. Problemin həlli - Məsuliyyət nəzərdə tutan normaların İXM və CM-də təsbiti**

Yuxarıda şərh olunan mövzudan aydın olur ki, CPM-in 310.6 və MPM-in 177.3-cü maddəsində məhkəməyə hörmətsizlik göstərilməsinə görə cərimə və tutma tənbehinin tətbiq edilməsi İHAM presedent hüququ aspektindən cinayət ittihamı anlayışının tələblərinə cavab verdiyindən İHAK-ın 6-cı maddəsinin 1-ci hissəsinin təsir dairəsinə düşür. Lakin bu hələ İHAK-ın 6-cı maddəsinin pozuntusu demək deyildir. Belə ki, 2.2.b. hissəsində məhkəməyə hörmətsizlik göstərilməsinə görə təqsirkar şəxsin həmin hakim tərəfindən cərimə və ya tutma tədbirinə məruz qalması ilə bağlı müəyyən olunmuşdur ki, məhkəmənin qərəzsizliyi tələbi obyektiv meyarlar aspektindən pozulmuşdur. Belə ki, təqsirkar şəxsin cinayət məsuliyyətinə səbəb olmayan hallarda məhkəməyə hörmətsizlik göstərərkən (zalda siqaret çəkməsi, hakimin sözünü kəsməsi, tez-tez atmacalar atması və s.) hakim təqsirkar şəxsin qanunsuz əməllərindən zərər çəkmiş olur. Təqsirkar şəxsin həmin məhkəmə (hakim) tərəfindən tənbeh olunması isə hakim funksiyası ilə ittiham funksiyasının çulğalaşmasına səbəb olur ki, bu da obyektiv qərəzsizlik meyarının pozulması ilə nəticələnir. Təsadüfi deyil ki, KM "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 107.4-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair" 31.05.2012-ci il tarixli qərarında mahiyyətcə hazırkı mövzu ilə oxşar məsələyə toxunmuşdur. Belə ki, CPM-in 107.4-cü maddəsinə əsasən, *hakimə (məhkəmə tərkibinə) etiraz məhkəmə baxışını ləngitmək məqsədilə edilmişsə, yaxud etirazın dəlilləri uydurma olarsa (həqiqətə uyğun deyildirsə) etiraz etmiş şəxs məhkəmənin qərarına əsasən iki yüz iyirmi manat cərimə edilə bilər.* KM qeyd olunan qərarda *məsələyə qərəzsizlik və hüquqi müəyyənlik prinsipləri baxımından yanaşmağı* vacib hesab edərək qeyd etmişdir ki, *hakimin hansı meyarlar əsasında etirazın uydurma olması qənaətinə gələrək cərimə təyin edə bilməsi, hansı meyarlar əsasında isə etirazı əsassız hesab edərək baxılmamış saxlaması cinayət-prosessual qanunvericiliyində müəyyənləşdirilməmişdir. Qanunvericilikdə mövcud olan bu qeyri-müəyyənlik hakimin qərəzsizliyini şübhə altına alaraq mövcud olan prosessual ədalət prinsipinə xələl gətirə bilər.* Göründüyü kimi, KM müvafiq qərarında CPM-in 107.4-cü maddəsinin qərəsizlik tələbinə uyğun olmadığını qeyd etməklə Azərbaycan Respublikasının Milli Məclisinə həmin normanı məhkəmə müdafiəsi təminatı və hüquqi müəyyənlik prinsipləri baxımından təkmilləşdirməyi tövsiyə etmişdir [30]. CPM-in 107.4-cü maddəsi ilə oxşar müddəa MPM-in 21.5-ci maddəsində nəzərdə tutulmuşdur: *"Əgər etiraz məhkəmə prosesini ləngitmək məqsədi ilə edilmişsə və ya etirazın dəlilləri uydurma olaraq həqiqətə uyğun deyildirsə,*

*bu halda, etirazı vermiş tərəf yüz on manatadək cərimə edilə bilər."* Odur ki, tədqiq olunan mövzu aspektindən CPM-in 107.4 və 310.6, MPM-in isə 21.5, 78.4, 140, 177.3, 180.3 186.2 və 320.3-cü maddələri mahiyyətcə eynidirlər.

Bununla əlaqədar CPM, MPM və İXM-də təsbit edilmiş müvafiq normaların təkmilləşdirilməsi və dəyişikliklərin edilməsi təklif olunur.


**ƏDƏBİYYAT:**

1. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 107.4-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair" 31.05.2012-ci il tarixli qərarı
2. Engel and others v. Netherlands., Judgment of 8 June 1976, Series A, No.22; § 82
3. Engel and others v. Netherlands., Judgment of 8 June 1976, Series A, No.22; § 81
4. Weber v. Switzerland., Judgement of 22 May 1990, Series A, No. 177; § 32
5. Jixi Zhang, Xiaohua Liang., The Scope of Application of Fair Trial Rights in Criminal Matters - Comparing ICCPR with Chinese Law, Arts and Social Sciences Journal, Volume 2010: ASSJ-5, p 3
6. Yenə orada
7. Demicoli v. Malta., 27 Judgement of August 1991, Series A, No. 210; § 32-33
8. Nula Moul və Katarina Harbi. Ədalətli məhkəmə araşdırması hüququ. İnsan hüquqları haqqında Avropa Konvensiyasının 6-cı maddəsinin tətbiqinə dair məlumat kitabçası, Council of Europe, s 21
9. Weber v. Switzerland., Judgement of 22 May 1990, Series A, No. 177; § 33
10. Jixi Zhang, Xiaohua Liang., The Scope of Application of Fair Trial Rights in Criminal Matters - Comparing ICCPR with Chinese Law, Arts and Social Sciences Journal, Volume 2010: ASSJ-5, p 3
11. Nula Moul və Katarina Harbi. Ədalətli məhkəmə araşdırması hüququ. İnsan hüquqları haqqında Avropa Konvensiyasının 6-cı maddəsinin tətbiqinə dair məlumat kitabçası, Council of Europe, s 20
12. Nula Moul və Katarina Harbi. Ədalətli məhkəmə araşdırması hüququ. İnsan hüquqları haqqında Avropa Konvensiyasının 6-cı maddəsinin tətbiqinə dair məlumat kitabçası, Council of Europe, s 23
13. Key case-law issues: Compatibility Ratione Materiae, Article 6 (Notıon of "Criminal Charge"), updated 31/12/2006, p 2
14. "Serqey Zolotuxin Rusiyaya qarşi" Şikayət 14939/03, Strasburq, 7 iyun 2007-ci il, http://supremecourt.gov.az/uploads/files/avropa-mehkemesi/sergey_zolotuxin_rusiya_federasiyasina_qarshi.pdf
15. Right to a fair trial under the European Convention on Human Rights (Article 6) Interights manual for lawyers | current as at september 07 produced with the generous support of the Open Society Institute, p 15
16. Engel and others v. Netherlands., Judgment of 8 June 1976, Series A, No. 22; § 82
17. Nula Moul və Katarina Harbi. Ədalətli məhkəmə araşdırması hüququ. İnsan hüquqları haqqında Avropa Konvensiyasının 6-cı maddəsinin tətbiqinə dair məlumat kitabçası, Council of Europe, s 24
18. Dovydas Vitkauskas, Grigoriy Dikov., Protecting the right to a fair trial under the European Convention on Human Rights, Council of Europe human rights handbooks, Council of Europe, Strasbourg, 2012, p 19
19. Right to a fair trial under the European Convention on Human Rights (Article 6) Interights manual for lawyers | current as at september 07 produced with the generous support of the Open Society Institute, p 15-16
20. Dovydas Vitkauskas, Grigoriy Dikov., Protecting the right to a fair trial under the European Convention on Human Rights, Council of Europe human rights handbooks, Council of Europe, Strasbourg, 2012, p 20
21. Right to a fair trial under the European Convention on Human Rights (Article 6) Interights manual for lawyers | current as at september 07 produced with the generous support of the Open Society Institute, p 17
22. Dovydas Vitkauskas, Grigoriy Dikov., Protecting the right to a fair trial under the European Convention on Human Rights, Council of Europe human rights handbooks, Council of Europe, Strasbourg, 2012, p 39-40
23. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 107.4-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair" 31.05.2012-ci il tarixli qərarı, http://constcourt.gov.az/decisions/236
24. Kiprianu (Kyprianou) Kiprə qarşı 15.12.2005, Strasburq, Şikayət N 73797/01, § 118, http://supremecourt.gov.az/uploads/files/avropa-mehkemesi/Kiprianu_Kipre_qarshi.pdf
25. Dovydas Vitkauskas, Grigoriy Dikov., Protecting the right to a fair trial under the European Convention on Human Rights, Council of Europe human rights handbooks, Council of Europe, Strasbourg, 2012, p 40-42
26. Right to a fair trial under the European Convention on Human Rights (Article 6) Interights manual for lawyers | current as at september 07 produced with the generous support of the Open Society Institute, p 40
27. Nula Moul və Katarina Harbi., Ədalətli məhkəmə araşdırması hüququ. İnsan hüquqları haqqında Avropa Konvensiyasının 6-cı maddəsinin tətbiqinə dair məlumat kitabçası, Council of Europe, s 46
28. Kiprianu (Kyprianou) Kiprə qarşı 15.12.2005, Strasburq, Şikayət N 73797/01, § 119, http://supremecourt.gov.az/uploads/files/avropa-mehkemesi/Kiprianu_Kipre_qarshi.pdf
29. Yenə orada
30. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 107.4-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair" 31.05.2012-ci il tarixli qərarı

## Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, N 2, maddə 87; 2015, N 8, maddə 910; 2016, N 8, maddə 1384) ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci bəndə "Əsasnamə" sözündən sonra "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa (bundan sonra - Qanun) və" sözləri əlavə edilsin;

2. 1.2-ci bəndə "xüsusi" sözündən sonra "idarələrarası" sözü əlavə edilsin;

3. 1.4-cü, 1.5-ci və 1.6-cı bəndlər aşağıdakı redaksiyada verilsin:

"1.4. Qanun əsasında sahibkarlıq sahəsində hər hansı yoxlama aparmaq səlahiyyətinə malik dövlət orqanları, publik hüquqi şəxslər, habelə dövlət mülkiyyətində olan və müvafiq xidmətlər göstərilməsində inhisarçı mövqe tutan hüquqi şəxslər (bundan sonra - yoxlayıcı orqan) sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi yerlərə gəlməklə sahibkarlıq fəaliyyəti subyektlərində keçirdikləri bütün növ yoxlamaların (o cümlədən araşdırma, müayinə, monitorinq, müşahidə, təftiş, nəzarət, xronometraj, reyd, baxış və digər bu cür tədbirlərin) bu Əsasnamə ilə müəyyən edilmiş müddətdə və qaydada Reyestrdə qeydiyyata alınmasını təmin etməlidirlər.

1.5. Sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi yerlərə gəlməklə sahibkarlıq sahəsində aparılan hər bir yoxlama yalnız Reyestrdə qeydiyyata alındıqdan sonra keçirilə bilər. Reyestrdə qeydiyyata alınmadan aparılan yoxlamaların hüquqi nəticəsi yoxdur.

1.6. Bu Əsasnamənin 3.2.3-cü, 3.4.12-ci, 3.4.15-ci, 4.3-2-ci, 4.5-4-cü, 5.1.9-cu və 5.1.13-cü yarımbəndləri vergi yoxlamalarına şamil edilmir.";

4. aşağıdakı məzmunda 1.6-1-ci bənd əlavə edilsin:

"1.6-1. Qanunun 8.3-cü maddəsinə uyğun olaraq yoxlayıcı orqanın sahibkarın müraciətinə əsasən ona metodiki kömək göstərilməsi, məsləhət verilməsi və vəziyyətin qiymətləndirilməsi məqsədilə yerləşdiyi və ya faktiki fəaliyyət göstərdiyi ünvana gəlməsi Reyestrdə qeydiyyata alınmır. Belə tədbirlər nəticəsində əldə olunan faktlarla bağlı sahibkarlıq fəaliyyətinin subyekti məsuliyyətə cəlb edilə bilməz.";

5. 1.7-ci bənddə "Reyestr" sözü "Reyestrin informasiya resursu vahid məkanda saxlanılmaqla" sözləri ilə əvəz edilsin;

6. 2.3-cü bəndə "sistemi" sözündən sonra "(bundan sonra - informasiya sistemi)" sözləri əlavə edilsin;

7. 2.4-cü bənddə "Qeydiyyat informasiya" sözləri "İnformasiya" sözü ilə əvəz edilsin;

8. 2.6-cı bənddən "qeydiyyat" sözü çıxarılsın, "xidmət" sözündən sonra "göstərilməsi" sözü əlavə edilsin, "həyata keçirilir" sözləri "təşkil olunur" sözləri ilə əvəz edilsin;

9. 2.7-ci bənddən "qeydiyyat" sözü çıxarılsın;

10. 3.1-3.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"3.1. Reyestrə yoxlayıcı orqan, sahibkarlıq fəaliyyəti subyektləri, habelə yoxlamalar və məhdudlaşdırıcı tədbirlər barədə məlumatlar daxil edilir.

3.2. Reyestrə yoxlayıcı orqanlarla bağlı aşağıdakı məlumatlar daxil edilir:

3.2.1. yoxlayıcı orqanların (yoxlama aparmaq səlahiyyəti olan struktur qurumları ilə birlikdə) siyahısı (Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi siyahıya əsasən);

3.2.2. yoxlayıcı orqanların nəzarət sahələri (Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi siyahıya əsasən);

3.2.3. yoxlayıcı orqanların yoxlama zamanı araşdırdıqları sualların siyahısı (yoxlayıcı orqanın hazırladığı, təsdiq etdiyi və avtomatlaşdırılmış rejimdə təqdim etdiyi yoxlama suallarının siyahısına əsasən).

3.3. Reyestrə sahibkarlarla bağlı aşağıdakı məlumatlar daxil edilir:

3.3.1. vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN);

3.3.2. hüquqi şəxsin, onun filial və nümayəndəliyinin, xarici dövlətlərin hüquqi şəxslərinin filial və nümayəndəliklərinin adları, təşkilati-hüquqi forması, əsas fəaliyyət növü, rəhbərin (qanuni nümayəndənin) fərdi identifikasiya nömrəsi (bundan sonra - FİN), hüquqi ünvanı, elektron ünvanı (təsərrüfat obyektləri olduqda onların fəaliyyət növü, ünvanı və əgər varsa, vergi orqanları tərəfindən verilən kodu);

3.3.3. hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxsin (fərdi sahibkarın) FİN-i, soyadı, adı, atasının adı, vergi uçot məlumatlarına əsasən ünvanı, əsas fəaliyyət növü, elektron ünvanı (təsərrüfat obyektləri olduqda, onların fəaliyyət növü, ünvanı və əgər varsa, vergi orqanları tərəfindən verilən kodu);

3.3.4. sahibkarın qeydiyyata alınması tarixi, vergi ödəyicisi kimi qeydiyyata alınması, yenidən qeydiyyata alınması və qeydiyyatdan çıxarılması tarixləri, hansı vergilərin (sadələşdirilmiş və ya ƏDV, mənfəət və ya gəlir) ödəyicisi olması;

3.3.5. sahibkarın fəaliyyət göstərməsi, fəaliyyətini dayandırması, fəaliyyətinə xitam verilməsi (səbəbi göstərilməklə) barədə məlumat;

3.3.6. sahibkarın kiçik, orta və iri sahibkar meyarları üzrə aid edildiyi kateqoriya;

3.3.7. sahibkarın müvafiq nəzarət sahəsinə münasibətdə aid edildiyi risk qrupu.";

11. 3.4-cü bənd üzrə:

11.1. 3.4.2-ci yarımbənddə "digər" sözü "bütün" sözü ilə əvəz edilsin və həmin yarımbənddən "göstərilməlidir" sözü çıxarılsın;

11.2. 3.4.6-cı yarımbənddə "aparılan sonuncu yoxlama" sözləri "həmin yoxlayıcı orqan tərəfindən aparılan sonuncu yoxlama, onun kodu (əgər varsa), növü, dövrü və müddəti" sözləri ilə əvəz edilsin;

11.3. 3.4.7-ci yarımbənddə "və" sözü ", aid olduğu nəzarət sahəsi, vergi yoxlamasının" sözləri ilə əvəz edilsin;

11.4. 3.4.8-ci, 3.4.12-ci və 3.4.13-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"3.4.8. yoxlanılacaq təsərrüfat obyektinin fəaliyyət növü, ünvanı və əgər varsa, vergi orqanları tərəfindən verilən kodu;";

"3.4.12. yoxlama zamanı araşdırılacaq suallar (yoxlayıcı orqanlar tərəfindən Reyestrdə öncədən yerləşdirilmiş suallardan informasiya sistemi vasitəsilə avtomatlaşdırılmış rejimdə seçilir);

3.4.13. yoxlamanın keçirilməsi haqqında qərarı qəbul etmiş şəxsin və yoxlayıcının FİN-i, soyadı, adı, atasının adı və vəzifəsi;";

11.5. aşağıdakı məzmunda 3.4.14?3.4.21-ci yarımbəndlər əlavə edilsin:

"3.4.14. yoxlamanın plan üzrə (növbəti) və ya plandankənar (növbədənkənar) olması (plandankənar (növbədənkənar) yoxlamadırsa, onun təyin edilməsi üçün əsaslar). Yoxlama hüquqi və fiziki şəxslərin, dövlət və yerli özünüidarəetmə orqanlarının müraciətlərinə, habelə kütləvi informasiya vasitələrində yayılan məlumatlara əsasən təyin olunduqda, həmçinin:

1. fiziki şəxsin FİN-i, soyadı, adı, atasının adı, əlaqə telefonu;

2. hüquqi şəxsin VÖEN-i, adı, ünvanı, əlaqə telefonu və müraciəti imzalayan şəxsin vəzifəsi, soyadı, adı, atasının adı;

3. dövlət və ya yerli özünüidarəetmə orqanının adı, ünvanı, müraciəti imzalayan şəxsin vəzifəsi, soyadı, adı, atasının adı;

4. kütləvi informasiya vasitəsinin növü, adı, yayılma tarixi, uçot nömrəsi;

5. məlumatın skan edilmiş surəti və ya elektron istinad mənbəyi (link);

6. Qanunun 16.7-ci maddəsinə uyğun təfərrüatlı əsaslandırma;

3.4.15. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli Fərmanında nəzərdə tutulmuş hallarda yoxlama aparılması üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin razılığı, əməkdaşının iştirakı tələb olunduqda isə onun FİN-i, soyadı, adı, atasının adı, vəzifəsi və əlaqə telefonu;

3.4.16. yoxlamanın dayandırılması və ya vergi yoxlamalarının müddətinin artırılması barədə məlumat (tarix, müddət, əsas, qərarı verən şəxsin vəzifəsi, soyadı, adı, atasının adı göstərilməklə);

3.4.17. yoxlamanın keçirilib-keçirilməməsi barədə məlumat (keçirilmədikdə, bunun səbəbləri);

3.4.18. yoxlamanın nəticəsi (yoxlama suallarının siyahısından (vergi yoxlamaları istisna olmaqla) bu yoxlama üçün seçilmiş hər bir konkret suala münasibətdə qanun pozuntusunun aşkar olunub-olunmaması);

3.4.19. aşkarlanmış qanun pozuntusunun məzmunu, pozuntuda cinayət, inzibati xəta və ya digər əlamətlərin olması, tələbləri pozulmuş normativ hüquqi aktların konkret struktur elementləri;

3.4.20. qəbul edilmiş qərar və ondan asılı olaraq məsuliyyət tədbirlərinin görülüb-görülməməsi, aşkarlanmış qanun pozuntusuna görə tətbiq olunmuş məsuliyyət tədbirlərinin təsviri (məbləğ və sair), məsuliyyətə cəlb edilmiş şəxslər (hüquqi şəxs olduqda, hüquqi şəxsin VÖEN-i, adı, ünvanı, vəzifəli şəxsin FİN-i, soyadı, adı, atasının adı, vəzifəsi), materialların göndərildiyi dövlət orqanları (məktubların tarixi və nömrəsi);

3.4.21. aşkarlanmış qanun pozuntusunun aradan qaldırılması üçün görülməli tədbirlər, bu tədbirlərin icrası üçün müəyyən olunmuş müddət və onların nəticələri.";

12. aşağıdakı məzmunda 3.4-1-ci və 3.6-cı bəndlər əlavə edilsin:

"3.4-1. Qanunun 28-ci maddəsində göstərilən, yoxlama ilə əlaqədar tətbiq olunan məhdudlaşdırıcı tədbirlər barədə aşağıdakılar tələb olunur:

3.4-1.1. məhdudlaşdırıcı tədbirin tətbiqi barədə aralıq aktın nömrəsi və tarixi;

3.4-1.2. məhdudlaşdırıcı tədbirin tətbiqinə səbəb olan tələbləri pozulmuş normativ hüquqi aktların konkret struktur elementləri;

3.4-1.3. məhdudlaşdırıcı tədbirin növü, tətbiq edilməsinin Qanunun 28-ci maddəsinə uyğun əsaslandırılması və tarixi;

3.4-1.4. məhdudlaşdırıcı tədbirin ləğv edilməsi üçün yerinə yetirilməli tədbirlər;

3.4-1.5. bu Əsasnamənin 3.4.15-ci yarımbəndinə müvafiq olaraq, məhdudlaşdırıcı tədbirin tətbiqinə dair Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin razılığının olub-olmaması;

3.4-1.6. məhdudlaşdırıcı tədbirin tətbiqi barədə qərarın nömrəsi və tarixi;

3.4-1.7. məhdudlaşdırıcı tədbirin ləğv edilməsinin tarixi və səbəbləri.";

"3.6. Bu Əsasnamənin 3.2.1-3.2.3-cü və 3.4.1-ci yarımbəndləri üzrə məlumatları Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, 3.3.1-3.3.5-ci yarımbəndləri üzrə məlumatları Azərbaycan Respublikasının Vergilər Nazirliyi, 3.4.15-ci və 3.4-1.5-ci yarımbəndləri üzrə məlumatları Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, 3.3.6-cı yarımbəndi üzrə məlumatları Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 3.3.7-ci, 3.4.2-3.4.14-cü, 3.4.16-3.4.21-ci, 3.4-1.1-3.4-1.4-cü, 3.4-1.6-cı və 3.4-1.7-ci yarımbəndləri üzrə məlumatları yoxlayıcı orqanlar, 3.5-ci bəndi üzrə məlumatları isə sahibkarlıq fəaliyyəti subyektləri Reyestrə daxil edirlər.";

13. 4.2-ci və 4.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"4.2. Hər növbəti il üzrə yoxlamaların keçirilməsi barədə bu Əsasnamənin 3.4.2-ci, 3.4.3-cü və 3.4.5-3.4.11-ci yarımbəndlərində nəzərdə tutulmuş məlumatları özündə əks etdirən informasiya sistemi vasitəsilə elektron formatda tərtib olunmuş illik yoxlama planı yoxlayıcı orqanın rəhbəri və ya onun vəzifəsini icra edən şəxs tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək hər il 1 noyabr tarixindən gec olmayaraq Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilir.

4.3. Bu Əsasnamənin 4.2-ci bəndinə uyğun olaraq təqdim edilmiş illik yoxlama planında nəzərdə tutulmuş yoxlamaların qeydiyyata alınması

üçün hər bir yoxlama barədə bu Əsasnamənin 3.4.2-3.4.13-cü yarımbəndlərində göstərilmiş məlumatlar yoxlamadan ən azı 5 iş günü (vergi yoxlamasından ən azı 15 gün) əvvəl yoxlayıcı orqanın rəhbəri və ya onun vəzifəsini icra edən şəxs tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək, informasiya sistemi vasitəsilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilir.";

14. aşağıdakı məzmunda 4.3-1-ci və 4.3-2-ci bəndlər əlavə edilsin:

"4.3-1. Bu Əsasnamənin 4.2-ci bəndinə uyğun olaraq təqdim edilmiş illik yoxlama planında nəzərdə tutulmamış yoxlamaların qeydiyyata alınması üçün hər bir yoxlama barədə bu Əsasnamənin 3.4.2-3.4.13-cü və 3.4.15-ci yarımbəndlərində göstərilmiş məlumatlar yoxlamadan ən azı 1 iş günü əvvəl yoxlayıcı orqanın rəhbəri və ya onun vəzifəsini icra edən şəxs tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək, informasiya sistemi vasitəsilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilir.

4.3-2. Yoxlama aparılması üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin razılığı tələb olunduğu halda, bu Əsasnamənin 4.3-1-ci bəndində göstərilən məlumatlar yoxlamadan ən azı 2 iş günü əvvəl yoxlayıcı orqanın rəhbəri və ya onun vəzifəsini icra edən şəxs tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək, informasiya sistemi vasitəsilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edilir. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi təqdim olunmuş materialları 1 iş günü ərzində təhlil edir və yoxlamanın keçirilməsinə razılıq verilib-verilməməsi barədə məlumatı Reyestrdə yerləşdirir. Yoxlamanın keçirilməsinə razılıq verilmədikdə, bunun səbəbləri qeyd olunur.";

15. 4.5-ci bənddə "alına bilər" sözləri "alınır" sözü ilə əvəz edilsin;

16. aşağıdakı məzmunda 4.5-1-4.5-5-ci bəndlər əlavə edilsin:

4.5-1. Yoxlamanın dayandırılması və ya vergi yoxlamasının müddətinin artırılması üçün yoxlamanın başaçatma tarixindən ən geci 1 iş günü əvvəl bu Əsasnamənin 3.4.16-cı yarımbəndində göstərilən məlumatlar yoxlayıcı orqanın rəhbəri və ya onun vəzifəsini icra edən şəxs tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək, Reyestrdə yerləşdirilməsi üçün informasiya sistemi vasitəsilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilir.

4.5-2. Yoxlayıcı orqandan asılı olmayan səbəblərdən Reyestrdə qeydiyyata alınmış yoxlama ilə bağlı hər hansı dəyişiklik baş verərsə, yoxlamanın başlama tarixinə ən geci 1 gün qalmış (yoxlayıcı ilə bağlı dəyişiklik baş verdikdə isə yoxlama başa çatanadək) zəruri məlumatlar yoxlayıcı orqanın rəhbəri və ya onun vəzifəsini icra edən şəxs tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək, Reyestrdə yerləşdirilməsi üçün informasiya sistemi vasitəsilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilir.

4.5-3. Yoxlama zamanı yoxlanılan sahibkarın fəaliyyətinə məhdudlaşdırıcı tədbirin tətbiqi barədə müvafiq qərarın qəbul edildiyi tarixdən 1 iş günü müddətində bu Əsasnamənin 3.4-1.1-3.4-1.4-cü yarımbəndlərində göstərilən məlumatlar Reyestrdə yerləşdirilməsi üçün yoxlayıcı orqanın rəhbəri və ya onun vəzifəsini icra edən şəxs tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək, informasiya sisteminə daxil edilir.

4.5-4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi razılıq verdiyi təqdirdə, bu Əsasnamənin 4.5-3-cü bəndində və 3.4-1.5-ci yarımbəndində göstərilən məlumatlar avtomatlaşdırılmış rejimdə Reyestrdə yerləşdirilir və yoxlayıcı orqan tərəfindən əlavə olaraq 3.4-1.6-cı və 3.4-1.7-ci yarımbəndlərdə göstərilən məlumatlar informasiya sistemi vasitəsilə Reyestrə göndərilir. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi razılıq vermədikdə, yoxlayıcı orqan bu barədə məlumatlandırılır.

4.5-5. Məhdudlaşdırıcı tədbir ləğv edildikdən sonra 3 iş günü ərzində yoxlayıcı orqan bu Əsasnamənin 3.4-1.7-ci yarımbəndində nəzərdə tutulmuş məlumatları Reyestrə göndərir.";

17. 4.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.7. Yoxlayıcı orqan aparılmış hər bir yoxlamanın başa çatmasından sonra 5 iş günü ərzində yoxlamanın keçirildiyi barədə, sonrakı 15 iş günü ərzində (vergi yoxlamalarının materiallarına baxılmanın nəticələri üzrə vergi orqanının qərarının qəbulundan sonra 5 iş günü ərzində) isə 3.4.18-ci və 3.4.19-cu yarımbəndlərdə nəzərdə tutulmuş məlumatları Reyestrə təqdim edir. Bu Əsasnamənin 3.4.20-ci və 3.4.21-ci yarımbəndlərində göstərilən məlumatların müəyyən edilməsi üçün qanunvericiliklə daha uzun müddət tələb olunduqda, həmin müddət reyestrdə göstərilir və məlumat ona uyğun təqdim edilir.";

18. 4.9-cu bənddə "(keçirilmiş yoxlamaların pred-

meti və əsasları, yoxlayıcı orqanlar və yoxlanılan sahibkarlıq subyektləri, yoxlamaların nəticələri, qəbul olunmuş qərarlar, yol verilən pozuntular, görülmüş tədbirlər, təhlillər, statistik və digər göstəricilər qeyd olunmaqla)" sözləri "(keçirilmiş yoxlamaların əsasları, yoxlayıcı orqanlar, onların nəzarət sahələri və yoxlanılan sahibkarlıq subyektləri, yoxlamaların nəticələri, qəbul edilmiş qərarlar, sahibkarların yol verdiyi pozuntular, görülmüş tədbirlər, yoxlamaların qeydiyyatı zamanı yoxlayıcı orqanların yol verdiyi pozuntular (o cümlədən yoxlamalarla bağlı Reyestrə təqdim edilən məlumatların natamam olması, düzgün olmaması, qanunvericiliklə uyğunsuzluq təşkil etməsi və vaxtında təqdim edilməməsi halları), təhlillər, statistik və digər göstəricilər qeyd olunmaqla) sözləri ilə əvəz edilsin;

19. 5.1-ci bənd (5.1.1-5.1.5-ci yarımbəndlər istisna olmaqla) aşağıdakı redaksiyada verilsin:

"5.1. Yoxlamanın qeydiyyata alınması, dayandırılması və vergi yoxlamalarının müddətinin artırılması barədə yoxlayıcı orqanlara qeydiyyat aparıldığı gün, habelə yoxlanılan sahibkarlıq fəaliyyəti subyektlərinə sorğu əsasında sorğunun daxil olduğu gündən 1 iş günü müddətində gücləndirilmiş elektron imza ilə təsdiqlənmiş Reyestrdən çıxarış onlayn rejimdə təqdim olunur. Çıxarışda aşağıdakı məlumatlar göstərilir:";

20. 5.1.5-ci yarımbənddən "predmeti və" sözləri çıxarılsın, həmin yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 5.1.6-5.1.15-ci yarımbəndlər əlavə edilsin:

"5.1.6. yoxlamanın aparılacağı təsərrüfat obyektinin fəaliyyət növü, ünvanı və kodu;

5.1.7. yoxlamanın növü;

5.1.8. yoxlanılan dövr;

5.1.9. yoxlama zamanı araşdırılacaq suallar;

5.1.10. vergi yoxlamasının predmeti;

5.1.11. yoxlamanın plan üzrə (növbəti) və ya plandankənar (növbədənkənar) olması (plandankənar (növbədənkənar) yoxlamadırsa, onun təyin edilməsi üçün əsaslar);

5.1.12. yoxlayıcının (yoxlayıcıların) soyadı, adı, atasının adı və vəzifəsi;

5.1.13. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin nümayəndəsinin iştirakı tələb olunduğu hallarda onun soyadı, adı, atasının adı və vəzifəsi;

5.1.14. yoxlamanın dayandırılmasının, vergi yoxlamasının müddətinin artırılmasının tarixi və müddəti;

5.1.15. yoxlamanın dayandırılmasına, vergi yoxlamasının müddətinin artırılmasına əsas olan hallar.";

21. 5.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.2. Yoxlamanın keçirilməsi, dayandırılması və ya vergi yoxlamasının müddətinin artırılması üçün yoxlayıcı orqanın vəzifəli şəxsi yoxlamanın qeydiyyata alınması, dayandırılması və ya müddətinin artırılması barədə Reyestrdən çıxarışı sahibkara və ya onun səlahiyyətli nümayəndəsinə təqdim edir. Yoxlama çıxarışda göstərilən məlumatlara uyğun aparılır.";

22. 5.6-cı bənddən "aparılmış" sözü çıxarılsın;

23. 7.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"7.1. Yoxlayıcı orqanların vəzifəli şəxsləri Reyestrdə qeydiyyata alınmadan yoxlama aparılmasına, habelə qeydiyyata alınmış yoxlama barədə məlumatın verilməsi qaydalarının pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.";

24. aşağıdakı məzmunda VIII hissə əlavə edilsin:

"VIII. Keçid müddəası

Bu Əsasnamənin 3.4.15-ci, 3.4-1.5-ci, 4.3-2-ci, 4.5-4-cü və 5.1.13-cü yarımbəndləri, həmçinin 3.6-cı bəndinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə aid hissəsi "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanunu qüvvədə olduğu müddətdə tətbiq edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 16 mart 2017-ci il*